

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Azərbaycan XİN Paşinyana cavab verdi: "Heç bir məntiqə sığmır"**



3

# Birgünlük səfər, yüzillik xidmət



2


SƏS

№ 143 (6826)

12 avqust 2023-cü il.
Qiymәti 60 qәpik


# "Artsax" Qarabağa qarşı

## Son sözü yenə Azərbaycan deyəcək



4

**Əli Kərimli və Cəmil Həsənli özlərini rüsvay etdilər**



9

**Gələcək, bu peşələr ilə gələcək!**



15

**Ərzaq təhlükəsi(zliyi)**



9

**Qarabağda yaşayan ermənilər üçün bir yol var – reinteqrasiya**




8

**Yeməklərdə duzu hansı inqrediyentlərlə əvəz edə bilərik?**



10

# Birgünlük səfər, yüzillik xidmət

## PREZİDENT İLHAM ƏLİYEV: "Bu açılışlar, əslində, gördüyümüz işlərin həcmini göstərir"

***Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, orada görülən işlərlə tanışlığı, eyni zamanda həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə tədbirlər planını təsdiqləməsi, Prezidentin ehtiyat fondundan vəsaitlərin ayrılması, o cümlədən, infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanması, xalqın milli-mənəvi dəyərlərinin qorunması, regionlarda yeni müəssisələrin, iş yerlərinin açılması, regional inkişaf proqramlarının uğurlu icrası və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən amillərdir. Ən əsası isə, birgünlük səfər, əslində, yüz illər boyu bölgə əhalisinin rifahına və rahatlığına xidmət edəcək. Çünki bu səfər çərçivəsində rayonun inkişafı üçün çox mühüm açılışlar və təqdimatlar reallaşır.***





Bir sözlə, son 20 il ərzində dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib. Elə bu günlərdə, yeni avqustun 7-də ..

### PREZİDENT İLHAM ƏLİYEVİN QAZAX, ŞƏMKİR, SAMUX VƏ BƏRDƏ RAYONLARINA SƏFƏRİ AZƏRBAYCANIN MİLLİ PRİORİTETLƏRİNƏ DOĞRU DAHA BİR ADDIM HESAB OLUNMALIDIR





Göründüyü kimi, Prezident İlham Əliyevin ötən gün Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri, orada görülən işlərlə tanışlığı, ilk növbədə, dövlət başçısının regionların inkişafına olan diqqətin əyani təzahürüdür. Xüsusən dövlət başçısının açılışını etdiyi infrastruktur layihələri və obyektlər regionların paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olması və bölgələrimizin milli gəlirdə payının artırılması baxımdan çox önəmli hadisədir.

İstənilən ölkədə davamlı inkişaf üçün möhkəm zəmin yalnız uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və tarazlı olmasını təmin etməklə mümkündür. Azərbaycanda, xüsusilə Vətən müharibəsindən sonra müşahidə olunan yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, bu çərçivədə sosial-iqtisadi və siyasi nailiyyətlər, çox böyük nemətimiz olan milli və multikultural dəyərlər, habelə sabitliyin möhkəmliyi ölkədə sağlam və tarazlı iqtisadi artıma nail olunduğunu göstərir. Bütün bunlar Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır, amma eyni zamanda hazırda müşahidə olunan qlobal iqtisadi təlatümlər çərçivəsində cari müsbət nəticələrin davamlılığının təmin olunması zərurətini ortaya çıxarır.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl və şaxələndirilmiş tədbirlər, Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsi ölkənin yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Həmçinin, onu da vurğulamaq lazımdır ki, dövlət başçısının məhz 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sırasında üçüncü hədəf kimi, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğunu və bu hədəfin vacib elementi kimi paytaxt və regionların tarazlı inkişafını müəyyən edib. Dövlət başçısının söylədiyi kimi: "Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər".

Bəli, bunun üçün isə əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır və bu isə yalnız bölgələrin potensialı hesabına mümkündür. Eyni zamanda, regionlarda cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsinin möhkəmlənməsi vacib şərtdir. Onu da vurğulamaq lazımdır ki, 44 günlük qələbəmizdən sonra həm işğaldan azad edilmiş ərazilərimizdə, həm də regionlarımızda böyük quruculuq və bərpa işləri aparılır. Elə avqustun 7-də dövlət başçısının Qazax, Şəmkir, Samux, Bərdə rayonlarına səfəri özündə bütün məqamları ehtiva edir. Dövlət başçısı İlham Əliyevin bu səfərləri bir daha təsdiqləyir ki, hazırkı dövrdə əsas hədəf işğaldan azad edilmiş ərazilərimizin bərpası, yenidən qurulması, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı olmaqla yanaşı, bütün bölgələrin tərəqqisi prioritetdir. Cənab İlham Əliyevin bu bölgələrdə açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin açılışı bir daha görülən işləri təsdiqidir. Bir sözlə

### BİRGÜNLÜK SƏFƏR, YÜZİLLİK XİDMƏT: DÖVLƏT BAŞÇISININ BÖLGƏLƏRƏ SƏFƏRİ ƏHALİNİN RİFAHINA XİDMƏT EDİR

Bəli, bir günlük səfər zamanı yeni uğurların təməlinin qoyulması və xidməti kimi dəyərləndirilməlidir. Qazax, Şəmkir, Samux və Bərdə rayonlarında rayonuna səfəri çərçivəsində su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi, avtomobil yolları və mebel fabrikinin, Şəmkirdə məktəb-liseyin, Samuxda Mərkəzi Xəstəxana və uşaq musiqi məktəbinin yeni binalarının, Bərdədə Qarabağ Regional DOST Mərkəzi və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışlarını etməsi sübut edib ki, bizim üçün prinsipial məsələ olan azad edilmiş ərazilərin bərpası ilə yanaşı, digər regionlar da möhtərəm Prezidentin diqqət mərkəzindədir. Məqsəd isə çox aydındır - uğurlu iqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla ən azı paytaxt qədər bütün bölgələrimizdə də həyat səviyyəsi ilbəil yaxşılaşmalı, insanların yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxış bərabər və ədalətli olmalı, daha dəqiq desək, hər bir vətəndaş, o cümlədən paytaxtdan kənarda yaşayanlar öz həyatlarında bu inkişafı hiss etməlidirlər. Bu mənada əminliklə demək olar ki, Prezident İlham Əliyevin Qərb bölgəsinə səfəri həm də göstərmiş oldu ki, dövlət başçısı milli sosial rifah səviyyəsinin davamlı və bütün ölkə üzrə artmasını Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsinə çevirə bilib. Birgünlük səfər, əslində, yüz illər boyu bölgə əhalisinin rifahına və rahatlığına xidmət edəcək. Çünki bu səfər çərçivəsində rayonun inkişafı üçün çox mühüm açılışlar və təqdimatlar reallaşdı.

Həyata keçirilən siyasətin əsas hədəflərindən biri vətəndaş məmnunluğunun artırılması, əhaliyə sosial xidmətin təkmilləşdirilməsidir. Azərbaycan yenilikçi ölkə olaraq bu layihləri uğurla həyata keçirməklə dünyanın diqqətini özünə çəkir. Azərbaycan brendi kimi dünyaya səs salan bu layihələr beynəlxalq səviyyədə təqdir edilir, öyrənilməsinin və tətbiqinin vacibliyi bildirilir. Qeyd edilən rayonların timsalında görülən işlərin miqyasının genişliyi fonunda bu fikri böyük inamla qeyd edirik ki, regionların inkişafı dövlət siyasətinin əsasında dayanır. Nəzərə alsaq ki, bu işlər işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə paralel şəkildə həyata keçirilir, bu halda reallaşdırılan quruculuq işlərinin bütün ölkəni əhatə etdiyi aydın nəzərə çarpır.

Dövlət başçısı İlham Əliyev daim bu məqamı xüsusi qeyd edir ki, bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bəyan etdiyimiz bütün hədəflər, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir.

Bir sözlə, Qazax, Şəmkir, Samux və Bərdə rayonlarının timsalında bu fikri böyük qürur hissi ilə qeyd edirik ki, cənab İlham Əliyev yalnız işğaldan azad edilmiş deyil, bütün rayonların sosial-iqtisadi inkişafını, yenilikləri özündə əks etdirməsini diqqətdə saxlayır. Həmçinin bölgələrə səfərlərdən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün əlavə Tədbirlər Planı təsdiqlənir, Prezidentin Ehtiyat Fondundan böyük məbləğdə vəsaitlər ayrılır.

Beləliklə, yuxarıda sadalananlar bir daha onu göstərir ki, Prezident İlham Əliyevin Qazax, Şəmkir, Samux və Bərdəyə səfəri, orada görülən işlərlə tanışlığı regionların inkişafına olan diqqətin əyani təzahürüdür və Cənab Prezidentin bölgələrə hər səfəri yeni uğurların təməli və müjdəsi kimi dəyərləndirilməlidir.

**RƏFİQƏ KAMALQIZI**

# Həmrəyliyə, diaspor quruculuğuna, lobbiçiliyə önəm verilir

***Həmrəyliyi, birliyi təmin etməklə xalqını qələbələrə, işıqlı gələcəyə aparan, milli, eləcə də mənəvi birliyə xidmət edən, bununla da xalqının taleyində müstəsna rol oynayan tarixi şəxsiyyətlər unudulmurlar. Xalqı öz ətrafında birləşdirməklə, milli ideyalar uğrunda səfərbər etməklə, ən çətin vəziyyətdən çıxmaq üçün düzgün, doğru yolu göstərən və bununla da cəmiyyətin inkişafına böyük tövhələr verən həmin şəxsiyyətlər əbədi olaraq yaddaşlarda yaşayır.***

Məhz Ümummilli Lider Heydər Əliyev, onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev öz xalqını qələbələrə, işıqlı gələcəyə aparan, cəmiyyətin inkişafına saysız-hesabsız tövhələr verən şəxsiyyətlərdir və biz görürük ki, əldə etdiyimiz qələbələrimizdə bizim həmrəyliyimizin böyük rolu var.

Tarixi şəxsiyyətlər xalqı qələbələrə milli birlik, həmrəylik sayəsində aparırlar və birliyimizə, həmrəyliyimizə nail olmağın nə dərəcədə önəmli olduğuna zərrə qədər şübhə yoxdur. Həmrəyliyin, milli birliyin sayəsində əldə etdiyimiz qələbəmiz bunu bir daha təsdiq etdi ki, dünya azərbaycanlılarının həmrəyliyi, eləcə də ölkəmizin, xalqımızın milli maraqlarının müdafiəsi üçün diasoir quruculuğu, lobbiçilik olduqca vacib məsələdir. Hələ ötən əsrin sonlarında daxili çəkişmələrin aradan qaldırılmasında, yenidən müstəqilliyi bərpa edilən Azərbaycanın dövlətçilik əsaslarının möhkəmləndirilməsində, istərsə də 30 ilə yaxın müddət ərzində erməni terrorçuları tərəfindən işğal altında saxlanılan torpaqlarımızın işğaldan azad edilməsində milli birliyin, həmrəyliyin nəyə qadir olduğunu və nə qədər vacib olduğunun bir daha şahidi olduq. Deməli, həmrəyliyimizin, diaspor quruculuğunun, lobbiçiliyin labüdlüyü hər bir zaman kəsiyində prioritet olaraq qəbul olunması vacib məsələdir. Ulu Öndər Heydər Əliyevin sayəsində 31 dekabr tarixi Dünya Azərbaycanlılarının Həmrəylik Günü olaraq təqvimə yazıldı və bu, heç də təsadüfi deyildi, məhz həmrəyliyimizə verilən dəyər sayılır.

Ötən əsrin sonlarında öz müstəqilliyini yenicə bərpa edən, hələ möhkəmlənməyən Azərbaycana qarşı baş qaldıran düşmən qüvvələrin hər birinin məqsədi bəlli idi və onlar üçün ən vacib məsələ ölkəmizi parçalamaqdan ibarət idi, hansıki bunun üçün müxtəlif istiqamətlərdə öz çirkin niyyətlərini ortaya qoymuşdular və etnik qarşıdurmalara, toqquşmalara səbəb olacaq bütün əməllərə əl atırdılar. Deməli, bizi parçalamaq, həmrəyliyimizin qarşısını almaqla öz məkrli niyyətlərinə çatacaqlarını zənn edirdilər və dövlətimizi sarsıtmaq üçün, bizi zəiflətmək üçün birliyimizi əlimizdən almağı ən təsirli hesab edirdilər. Müxtəlif etnik münaqişələrin, eləcə də daxili çəkişmələrin yaranması üçün əlindən gələni edənlər hardasa buna nail ola bildilər deyə, erməni separatçıları, Qarabağ klanı öz çirkin niyyətlərini həyata keçirmək üçün münbit şərait qazanmış oldu və torpaqlarımızın 20 faizi də məhz buna görə işğala məruz qaldı. Bədnam qonşularımız birliyimizin, həmrəyliyimizin olmamasından istifadə edərək namərdcəsinə üstümüzə hücum çəkdilər və öz işğalçılıq niyyətlərini gerçəkləşdirə bildilər. Təəssüf ki, birliyimizin, həmrəyliyimizin olmaması, daxili çəkişmələrin baş alıb getməsi imkan vermədi ki, işğalçıları yerində oturda bilək və bu bizə torpaqlarımızın 20 faizinin işğalı, vətəndaşlarımıza qarşı ermənilərin soyqırım siyasətinin reallaşması, bir milyindan çox məcburi köçkünün öz yurd-yuvalarından didərgin düşməsi və saysız-hesabsız itgilər bahasına başa gəldi. Halbuki, indiki kimi həmrəyliyimiz, birliyimiz olsayda mənfur düşmən öz məkrli planlarını həyata keçirə bilməzdi və bunun qarşısı layiqincə alınardı, hansıki biz bunun İkinci Qarabağ müharibəsi zamanı şahidi olduq.




Qeyd olunun həmin çətin, keşməkeşli, daxili çəkişmələrin hökm sürdüyü dövrdə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı və məhz ilk növbədə parçalanmaların, toqquşmaların qarşısını almaqla, həmrəyliyimizi, birliyimizi bərpa etməklə problemli məsələlərin köklü şəkildə həllinə nail oldu. İlk növbədə öz Liderinin ətrafında xalqımızın birləşməsi və birliyimiz, həmrəyliyimiz sayəsində ən çətin problemlərin öhdəsindən gəlindi. Məhz davam etməkdə olan erməni işğalının qarşısının alınması da, atəşkəs elan olunması da, sabitliyin bərpa edilməsi də, bugünkü qələbələrimizi təmin edəcək iqtisadi inkişaf yolunun təməlinin qoyulması da, cəmiyyətimizin bütün sahələr üzrə inkişafı istiqamətində əsaslı addımların atılması da təbii ki, birliyimiz, həmrəyliyimiz sayəsində reallaşdırıldı.

Xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdə yaşayan azərbaycanlılarla Ulu Öndər Heydər Əliyevin görüşlər təşkil etməsi, onlarla söhbətlər aparması, onlara tövsiyyələr verməsi təsadüfi və səbəbsiz deyildi. Ulu Öndər birliyin, həmrəyliyin nəyə qadir olduğunu nəzərə alaraq bunu edirdi və ona görə də tövsiyyə edirdi ki, harada yaşamasından, harada məskunlaşmasından asılı olmayaraq azərbaycanlılar bir-birləri ilə əlaqəni kəsməsinlər və onların təşkilatlanmasının vacibliyini vurğulayırdı. Məhz dahi liderin bu tövsiyyələri, göstərişləri dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən xoş qarşılandı və diasporumuz yaranmağa başladı, diaspor quruculuğu başlanıldı. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, diaspor quruculuğu, lobbiçilik Ulu Öndərin adı ilə bağlıdır və Azərbaycan diasporlarının yaradıcısı və banisi elə məhz Ümummilli Lider Heydər Əliyevdir.

Dünyada Azərbaycan diasporlarının, lobbilərinin yaranması ilə Azərbaycan əleyhinə yalan, təhrif olunmuş, feyk məlumatları yayan erməni təbliğat maşınının

fəaliyyətləri məhdudlaşdırıldı, dezinformasiyaları ifşa edildi ki, bununla da həmin təbliğat maşını ermənilərə istədikləri nəticəni verə bilmədi. Diasporlar, lobbiçilik fəaliyyətə başlamaqla Azərbaycan həqiqətləti bütün dünyaya çatdırıldı və erməni yalanları, eləcə də hayların uydurmaları, yalanları ayaq tutub yeriyə bilmədi. Çünki məhz dünya azərbaycanlılarının həmrəyliyi, birliyi, diasporlarımızın fəaliyyəti sayəsində bütün dünya Azərbaycanın haqlı olduğunu, ərazilərimizin erməni separatizmi tərəfindən işğala məruz qoyulduğu barədə məlumatlandırıldı. Bir sözlə, artıq ölkəmizin haqlı maraqları dünya miqyasında müdafiə edilməyə başlanıldı.

İqtisadi inkişafın, güclü dövlət quruculuğunun, maddi imkanların, silah-sursatın, hərbi texnikanın, eləcə də hərbi potensialın düşmənə layiqli cavab vermək üçün vacib olduğu qədər birliyimiz və həmrəyliyimizin, diasporların, lobbiçiliyik fəaliyyətinin də bir o qədər önəmli olduğu öz təsdiqini elə 44 günlük müharibə dönəmində bir daha tapdı. Şahidi olduq ki, xalqımız birləşərək bir yumruq, "Dəmir yumruq" olub düşmənin başını ən qısa zamanda əzdiyi kimi, ölkəmiz əleyhinə dünyanın bir çox ölkələrində, ələlxüsus həmin ölkələrin səfirlikləri qarşısında aksiya keçirən erməni təşkilatlanmasının da qarşısına məhz Azərbaycan diasporu çıxdı, onların layiqli cavabını verdi. Birliyimiz, həmrəyliyimiz qarşısında nəinki Ohanyan səddi, ümumilikdə, dünyada olan erməni cəmiyyəti belə davam gətirə bilmədi. Məhz bilrliyimiz qarşısında davam gətirə bilməyən düşmən diz çökmək, təslim olmaq, kapitulyasiyaya imza atmaq məcburiyyətində qaldı. Birliyimizə, həmrəyliyimizlə məhz Ulu Öndərin layiqli davamçısı, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad etdik. Məhz Azərbaycan Prezidenti uzaqgörənliyi, siyasi iradəsi, qətiyyəti ilə öz xalqına, həmrəyliyimizə güvənməklə tez bir zamanda mükəmməl qələbəyə imza atdı.

***İnam Hacıyev***

# Azərbaycan XİN Paşinyana cavab verdi: "Heç bir məntiqə sığmır"



***Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı səsləndirdiyi iddialara cavab verib. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.***

Bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 11-də hökumətin iclasında çıxışı zamanı, növbəti dəfə bölgədə "gərgin humanitar vəziyyət" barədə iddiaları təkrarlayarkən, Ermənistan tərəfindən "humanitar yük" adı altında Laçın istiqamətində göndərilən yüklərin qəbul edilməməsinin erməni sakinlərə qarşı "etnik təmizləmə" kimi qələmə verməsi heç bir məntiqə sığmır.

"Azərbaycanın 20 faizə yaxın torpaqlarının işğalı nəticəsində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, nəinki bu torpaqlardan Ermənistan ərazisindən də azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmiş bir ölkənin rəhbərinin etnik təmizləmə iddiaları səsləndirməsinə mənəvi haqqı yoxdur. Ermənistanın bu iddiaları davamlı olaraq təkrarlaması göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək Ermənistanın Laçın yolundan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması bu ölkəni narahat edir.

Erməni sakinlərin həqiqətən də iddia olunduğu kimi gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi Ağdam-Xankəndi yolundan istifadə edilməsi mümkündür. Ermənistan tərəfi, əsassız şəkildə "humanitar böhran" barədə iddialar yaymaq və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribatlar törətmək əvəzinə, bölgədə sülh və sabitlik istiqamətində səy göstərməlidir", - deyə Xarici İşlər Nazirliyinin cavabında diqqətə çatdırılıb.

# Boqdan Drapyatıy: "Ukrayna Azərbaycanın humanitar yardımlarını yüksək qiymətləndirir"

Müharibə dönəmində Azərbaycan Ukraynaya humanitar yardımlarını davam etdirir. Bu dəstəyə görə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkür edirəm. AZƏRTAC xəbər verir ki, bunu Ukraynanın daxili işlər nazirinin müavini Boqdan Drapyatıy Azərbaycanın bu ölkədəki səfiri Seymur Mərdəliyevlə görüşündə söyləyib. Onun sözlərinə görə, Ukrayna Azərbaycanın bu yardımlarını yüksək qiymətləndirir. "Bu, münasibətlərimizin strateji xarakterinin daha bir göstəricisidir", - deyə nazir müavini vurğulayıb.

Azərbaycanın göstərdiyi humanitar yardımlar haqqında məlumat verən səfir S.Mərdəliyev, öz növbəsində qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna dövlətinə elektrik avadanlıqları üçün 7,6 milyon dollar ayrılması haqqında Sərəncam imzalayıb. Artıq müvafiq avadanlıqlar hazırlanır və maddi-texniki təchizat işlənir. Yaxın vaxtlarda Ukrayna Azərbaycandan generator və transformatorlar alacaq. Azərbaycan Ukraynaya humanitar yardım göstərməyə və bunu genişləndirməyə davam edəcək.



***Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üzrə danışıqlarda fasilə Qarabağda bir sıra həlli vacib məsələləri üzəçıxarıb. Vəziyyətə uyğun qalmaqallar və mübahisələr də dolu olub. İrəvan və Qarabağdakı separatçılar Azərbaycanı təkcə "Laçın yolunu bağlamaqda" deyil, həm də "soyqırımı"nda ittiham etməsi prosesi yaxından izləyən beynəlxalq təşkilatları belə "pat" vəziyyətinə salıb. Maraqlı budur ki, dünyanın tanıdığı, lakin Qarabağda baş verənlərdən bixəbər kimi görünən bəzi tanınmışlar, daha dəqiq desək Beynəlxalq Cinayət Məhkəməsinin birinci prokuroru Luis Moreno Okampo kimilər erməniləri dəstəkləməklə özlərini gülünc vəziyyətə salırlar. Halbuki, rəsmi Bakı güzəştə getməyə hazırlaşmır və metodik şəkildə təkrar edir ki, məsələ ölkə daxilində həll olunmalıdır və Qarabağ ermənilərinin iki yolu var - Azərbaycan vətəndaşı olmaq və ya getmək.***

# "Artsax" Qarabağa qarşı




*Son sözü yenə Azərbaycan deyəcək*

### Sakitlik zamanı fırtına

Gərgin Azərbaycan-Ermənistan sülh danışıqlarında fasilə yaranıb - sonuncu təmas iyulun sonunda Moskvada baş tutub. Diplomatik sakitlik fonunda iki ölkənin sərhədində və Qarabağ ətrafındakı vəziyyətlə bağlı bəyanatların və ittihamların çoxluğu xüsusilə nəzərə çarpır. İrəvan və Xankəndidə yaşayan ermənilər Azərbaycanı "blokada"da ittiham edirlər. Bu, ötən ilin dekabrında ekoloji fəalların tanınmamış "dqr"-ı Ermənistanla birləşdirən yolu bağlaması ilə başladı. Aprel ayında Laçın yolunda tam hüquqlu Azərbaycan nəzarət-buraxılış məntəqəsi peyda oldu və mülki vətəndaşlar buradan sərbəst şəkildə Ermənistana və əks istiqamətə hərəkət edə bilirlər. Amma bəzi istisnalar da var ki, bu da cinayət törətmiş şəxslərlə bağlıdır. Ötən ay Azərbaycan sərhədçiləri Xocalı rayonunun Meşəli kəndində qətliamlar törətmiş Vaqif Xaçatryanı saxlayıb. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) avtomobilində "müalicə" üçün Ermənistana getmək istəyən bu cinayətkarın arzusu ürəyində qalıb. Rəsmi orqanların açıqlamasına görə, o, birinci Qarabağ müharibəsində törətdiyi soyqırımı cinayətlərində iştirak etdiyi üçün saxlanılıb. İrəvan isə qarşılıqlı iddialarla çıxış edib.

Bakı "blokada" ilə bağlı ittihamları rədd edir və bildirir ki, Laçındakı post qanuni əsaslarla dayanır, Ermənistan da daxil olmaqla, bütün Qarabağın Azərbaycana mənsub olması ilə bağlı heç kim mübahisə etmir. Ermənistanın baş naziri Nikol Paşinyan bu il dəfələrlə Azərbaycanın ərazi bütövlüyünün İrəvan tərəfindən tanınması ilə bağlı bəyanatlar verib və bundan belə nəticə çıxır ki, Ermənistan tərəfi bütün Qarabağı, o cümlədən onun hələ Bakının nəzarətində olmayan hissəsini qonşu ölkənin ərazisi kimi tanıyır.

Rusiya da eyni mövqedən çıxış edir. Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə 4-cü departamentinin rəhbəri Denis Qonçar avqustun 4-də TASS-da dərc olunmuş müsahibəsində sülh danışıqlarındakı vəziyyəti şərh edərək deyib: "Biz hələ də bir sıra mürəkkəb məsələlər üzrə həll yolları tapmalıyıq. Onlardan ən mühümü Azərbaycanın qanunvericilik bazası çərçivəsində Qarabağın erməni əhalisinin təhlükəsizliyinin və hamı tərəfindən tanınmış hüquqlarına riayət olunmasının təmin edilməsi problemidir". Qarabağdakı erməni separatçılar isə bu mövqe ilə qəti şəkildə razılaşmırlar.

Onlar özlərinin iddialarını fəal şəkildə təbliğ edir, eyni zamanda, Qarabağ ermənilərinin problemini öz daxili işləri adlandırdıqları Bakının oyununu pozmağa ümid edərək məsələni "beynəlmiləlləşdirməyə" çalışırlar. İrəvan da, Xankəndidəki ermənilər də Azərbaycanın guya "soyqırımı" siyasəti yürütdüyünü iddia edirlər.

İyulun 9-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Bolqarıstan, Yunanıstan, İspaniya və Litvanın xarici işlər nazirləri Mariya Qabriel, Giorgos Gerapetritis, Xose Manuel Albares Buenoya, Qabrielius Landsberqisə, eləcə də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Yuri Kimlə söhbətində "Azərbaycanın Laçın dəhlizinin qeyri-qanuni şəkildə bağlanması nəticəsində yaranmış Qarabağda vəziyyətin gərginləşməsi haqqında" əhvalatı danışıb. XİN başçıları erməni həmkarlarının fikirlərinə bir o qədər də əhəmiyyət verməyiblər.

### BMT-yə səsləndi

Avqustun 8-də Qarabağdakı separatçıların başçısı Arayik Arutyunyan BMT-ni təcili olaraq Azərbaycana təsir göstərməyə və onu Laçın dəhlizinin blokunu açmağa məcbur etməyə çağırıb. O, "Artsaxın blokadası" nəticəsində törədilmiş "soyqırımı və humanitar fəlakəti" müzakirə etmək üçün BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmağa, habelə Azərbaycanı Laçın yolunu dərhal açmağa məcbur edən qətnamə qəbul etməyə çağırıb.

Ardı Səh. 5



# “Artsax” Qarabağa qarşı





**Əvvəli-Səh-4**

Bundan əlavə, Arayik Rusiya, ABŞ, Fransa, Avropa İttifaqı, Avropa Şurası, eləcə də Ermənistandan vəziyyətə təcili müdaxilə etməyi xahiş edib. “Laçın dəhlizinin blokadası tək bir epizod deyil. O, Azərbaycanın “Artsax xalqını məhv etməyə yönəlmiş planlaşdırılmış genişmiqyaslı və əlaqələndirilmiş siyasətinin tərkib hissəsi kimi qəbul edilməlidir”, deyə mesaj göndərib.

Arayik Arutyunyan Ermənistan rəhbərliyinə ayrıca müraciət edib: “Heç bir bəyanat və ya hərəkət Artsax xalqının öz müqəddəratını təyinetmə hüququnu şübhə altına almamalı və ya Azərbaycanın gələcək təcavüzkar hərəkətlərinə töhfə verməməlidir”. Bu sözlər birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü məsələsini şübhə altına almağa hesablanmış çağırış kimi oxunmalıdır.

Arutyunyan deyib ki, heç kimin “Artsax adından belə bəyanatlar verməyə haqqı yoxdur”. Ermənistan rəhbərliyi isə məsələyə başqa tərəfdən yanaşaraq Qarabağ məsələsinin onun Azərbaycanla müzakirə predmeti olmadığını dəfələrlə qeyd edib. O bildirib ki, təkcə Ermənistan vətəndaşları deyil, bütün erməni xalqı adından belə qərarlar qəbul etməyə nə qanuni, nə də mənəvi səlahiyyəti yoxdur. Rusiyalı oliqarxmilyarder, Qarabağda Kremlin maşası sayılan Ruben Vardanyan isə Qarabağ məsələsini “bütün erməni dünyasının məsələsidir” deyə qeyd edib.

Beynəlxalq Cinayət Məhkəməsinin birinci prokuroru Luis Moreno Okamponun avqustun 7-də hazırladığı və dərc etdiyi hesabat ən azı informasiya baxımından erməni tərəfinin işinə qismən yarayıb. Okampo giriş sözündə qeyd edir ki, onun məqsədi Azərbaycanın hərəkətlərinin nə üçün ”Qarabağın etnik ermənilərinə qarşı “soyqırımı” kimi qiymətləndirilməli olduğunu” izah etməkdir. “Burada krematoriya hücumları yoxdur. Aclıq soyqırımın görünməz silahıdır. Dərhal kardinal dəyişikliklər edilməzsə, ermənilərin bu qrupu bir neçə həftə ərzində məhv ediləcək”, Luis Moreno Ocampo qeyd edir. Bu şəxs guya uzun illərin təcrübəsinə söykənərək bu fikirləri səsləndirir. Bəs 30 il ərzində 1 milyondan artıq azərbaycanlı Qarabağ və ətraf rayonlardan məcburi qaydada çıxarılanda “dünya şöhrətli” hüquqşünas harada itibbatmışdı, azərbaycanlılar əsir götürülərkən, öldürülərkən, diri-diri yandırılarkən harada idi “möhtərəm Osampo cənabları. Bəlkə humanitar ifadəsi yalnız ermənilərə aid edilə bilər. Ermənilərdən başqa yerdə qalan millətlər buhüquqdan istifadə edə bilməzlər. Dünua şöhrətli prokuror sözlərini seçərkən, münasibət bildirərkən ehtiyatlı olmalıdır. Əks təqdirdə proseslər ona qarşı yönələ bilər. Beynəlxalq Cinayət Məhkəməsində prokuror kimi çalışmaq ona kimisə, baş verməyən hansısa cinayətdə ittiham etməyə yetərli deyil.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, sənəd qərəzlidir və real vəziyyəti təhrif edir, ciddi faktiki və hüquqi səhvlər ehtiva edir. “Azərbaycan Cənubi Qafqaz regionunda davamlı sülhün bərqərar olunması və Qarabağ bölgəsində yaşayan ermənilərin öz konstitusiyasına uyğun olaraq reinteqrasiyası, hüquqlarının, təhlükəsizliyinin və öhdəliklərinin təmin edilməsi istiqamətində ardıcıl səylərini davam etdirəcək”, - deyə Hikmət Hacıyev bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 1-də Euronews telekanalına müsahibəsində Bakının vəziyyətə münasibətini kifayət qədər sərt şəkildə açıqlayıb. Bildirib ki, hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazisində - Qarabağda yaşayan insanlar seçim etməlidirlər, bizim vətəndaşlığımızı qəbul edib etnik azlıq kimi yaşamaq istəyirlərsə burada qala bilərlər, ya da ərazini tərk edib getməlidirlər.

### Bakı göz yaşlarına inanmır

Moskvada vəziyyət çox mürəkkəb kimi qiymətləndirilir və onlar hesab edirlər ki, Bakı güzəştə getmək niyyətində deyil. Qərblilərin, beynəlxalq təşkilatların vəziyyəti birtəhər sakitləşdirmək cəhdləri heç bir nəticə vermir. Bakı geri çəkilmir. Qarabağdakı separatçılar da ara-sıra müqavimət şousu da göstərirlər. Qarabağda yaşayan ermənilər üçün Bakının təklif etdiyi alternativ tədarük marşrutu olan Ağdam-Xankəndi təklifi də “ac ermənilər” tərəfindən rədd edilir. Rusiya mənbələri isə məsələyə bir az fərqli tərəfdən yanaşaraq, çeynənilmiş bir üsulu ortaya atırlar. Qeyd edirlər ki, regionda digər kommunikasiyaların cəlb edilməsi mövzusunun müzakirəsi 9 noyabr tarixli Üçtərəfli Bəyanatın altıncı bəndinə uyğun olaraq, Laçın yolunun açılmasından və Rusiya sülhməramlı kontingenti tərəfindən bu marşruta tam nəzarətin bərpasından sonra mümkün ola bilər. Bununla da Rusiya özünü düşündüyünü bir daha göstərir.

Rusiya dövlət strukturlarında Ağdamdan keçən yolun sonda açılacağına inam var. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilkin olaraq həm Azərbaycan tərəfi, həm də Qarabağda yaşayan ermənilər tərəfindən razılaşdırılan variant təklif etdiyini bildirib. Mahiyyəti ondan ibarət idi ki, Ağdamdan keçən yol açılsa BQXK vasitəsilə lazım olan hər şeyin oradan çatdırılmasına başlanıla bilər. Və bu yerdə hərəkət başlayandan düz bir gün sonra Moskvanın təklifinə əsasən Laçın yolunda da nəqliyyatın hərəkəti bərpa edilə bilər. Xankəndi erməniləri isə Laçın yolunun 24 saat ərzində deyil, dərhal açılmasını tələb edəndən sonar məsələnin həlli yenə dalana dirənib. Ermənilərin “Vaqif Xaçatryanın azad edilməsindən sonar humanitar yüklər daşına bilər” şərti isə ölü doğulduğu kimi də öldü.

“Biz gözləyirik ki, beynəlxalq strukturlar və dövlət rəhbərləri Azərbaycanın Qarabağda yaşayan ermənilərə qarşı törətdiyi beynəlxalq cinayətlərə son qoymaq üçün sözdən əmələ keçəcəklər”, - Masis Mailyan deyir. Reallıq budur ki, regionda nüfuz uğrunda bir-biri ilə rəqabət aparan oyunçuların heç biri Azərbaycana şifahi təsirdən kənara çıxmağa hazır görünmür. Rusiya, Aİ və ABŞ Bakı ilə İrəvan arasında potensial sülh müqaviləsini birdəfəlik dəfn etməmək üçün ehtiyatlı davranır və paralel olaraq əsas sülhməramlı olmaq hüququ uğrunda yarışırlar.

***V.VƏLİYEV***



# Məktəb çantalarını necə seçməli?








***Yeni dərs ilinin başlanmasına az qalıb və təbiidir ki, böyük həvəslə övladımızı məktəbə hazırlayırıq. Amma bir çoxumuz məktəb ləvazimatlarının seçimində o qədər də geniş məlumata malik deyilik. Məktəbli çantaları bu seçimdə ən çox diqqət ayrılmalı məsələdir. Düzdür, bir çox valideyn övladının israrla tələb etdiyi çantanı alır, onun övladının səhhətinə vurduğu ciddi zərərlərə rəğmən...***



Məktəb çantaları uşaqların yük və ağırlıqla tanış olmağının ilk mərhələsi hesab edilir. Düzdür, çantaların ağırlığı uşaqların yaşına və siniflərinə görə dəyişir, amma çantaları alarkən düzgün seçim etsək, ağırlığı belə bərabər paylamış ola bilərik və bununla da uşaqları gərəksiz yükdən xilas etmiş olarıq.

Türkiyədə aparılan araşdırmalara görə, bel-onurğa ağrıları ilə həkimə müraciət edən məktəblilərin 70 faizində bu problemin yaranmasına məktəb çantaları səbəb olduğu aşkarlanıb. Mütəxəssislər xəbərdarlıq edir ki, ağır məktəb çantaları uşaqlarda ağır bel-onurğa problemlərinə, "skolyoz" adlandırılan xəstəliyə səbəb olur. Pediatr Ümidə Zeynalova deyir ki, skolyoz xəstəliyi insan onurğasının "C" şəklini alması deməkdir. Bu xəstəliyin başlanğıcı isə məhz kiçik yaşda onurğanın zədə almasıdır.

Müsahibimiz bildirir ki, çantalar kürəkdə və çiyinlərdə ağrıya səbəb olmayacaq ağırlıqda olmalıdır, eyni zamanda məktəb çantaları ağırlığı bütün bel nahiyəsinə bərabər paylamalıdır. Yeri gəlmişkən, məlumat üçün qeyd edək ki, Amerikada 2014-cu ildə 14 mindən çox uşaq məktəb çantalarının verdiyi zərərlər ucbatından həkimə müraciət edib. Həkimlər uşaqların bel ağrılarından, onurğa əyriliklərindən şikayət etməsinə səbəbin məhz məktəb çantalarının olmasını bildiriblər.

Mütəxəssislər məsləhət görür ki, məktəbli çantasının geniş və dəstəkli çiyin asqıları, bel kəmərinin olması vacibdir. Çantanın ağırlığı omba və ya bel kəməri bölgəsinə düşməlidir ki, onurğaya zərər verməsin. Valideynlər təkərli çantalar da ala bilərlər, bu ilk siniflər üçün daha rahatdır. Amma israrla kürəkdən asılma çanta istəyən uşaqlara çantanı elə seçmək lazımdır ki, ağırlıq çanta içərisində uyğun paylansın, çiyin asqıları rahat olsun, hər iki çiyindən asmaq üçün iki asqılı çanta olsun. Eyni zamanda görünüşcə daha portativ, amma içi geniş çanta daha məqsədəuyğundur.

Elə çanta seçilməlidir ki, içərisi dolu olduğu halda 8 yaşınadək olan uşaqlar üçün bu ağırlıq 2 kilo, 8-12 yaşındakı uşaqlar ən çox 4 kilo, 12-15 yaş arası uşaqlar isə 5 kilo təşkil etməlidir. Bir vacib məsələni də qeyd etmək lazımdır ki, uşaqların psixologiyasını korlayan şəkillər əks olunmuş kimyəvi qatqılı çantalar yerinə sadə, birrəng parçadan tikilmiş çantalara üstünlük vermək daha düzgündür.

Maraqlıdır, qeyri-standart çanta övladımıza hansı zərərlər verə bilər? Əvvəla bel ağrısı yarada bilər. Xüsusilə çantanın asqılarının uzun və ensiz olması bütün ağırlığın belə yönlənməsinə səbəb olur. Bədənin ağırlıq mərkəzinin arxaya sürüşməsi nəticəsində bel əzələlərində həddindən artıq zorlanma olur və ağrı meydana gəlir, diqqət edilməzdə irəlidə önəmli bel ağrıları meydana gələr.

Qeyri-standart çantanın verdiyi zərərlər arasında kürək ağrısıa var. Çanta ağır olsa və tək tərəfli çiyin asqısı istifadə edilsə əzələlər çətinlik çəkəcək. Xüsusilə boyun bir tərəfə əyiləcək. Birtərəfli daşınan çantalar onurğada sağ və ya sola əyilmələr (skolyoz ) kimi duruş pozğunluqlarına səbəb ola bilər. Çiyin ağrısı da nəticələrdən biridir. Çantadakı çiyin asqıları geniş və yumşaq olması çiyin üzərində yükün bərabər paylanmasına kömək edər, dar və sərt çiyin asqıları əzələnin müəyyən nöqtələrinə ağırlığın yüklənməsinə səbəb olacaq.

Normal olmayan çanta əl və qollarda ağrı yarada bilər. Çantanın çiyin asqılarının incə, ensiz, uzun və çantanın ağır olması sinirlərə edilən ən pis təzyiq olacaq. Bunun da nəticəsində əl və qola gedən sinirlər də zədə alacaq. Boyun - baş ağrısıda çox rastlanan narahatlıqlardan biridir. Ağır çanta daşıma, yaxud da ağır çantanın tək tərəfli daşınması durumunda boyun əzələlərində gərginlik, peysərdə ağrı və damar dartılmaları, baş ağrısı olacaq. Ağır və qeyri-düzgün şəkildə kürək çantası daşıyan və pillə qalxıb-enən uşaqlarda ayaq ağrıları daha çox olur.

***Lalə Mehralı***





















# Tarixi abidələr daş yaddaşımıza çevrilib

***Məlum olduğu kimi, Azərbaycan xalqının mədəni irsi çoxəsrlik tarixi keçmişimizdən yadigardır və bu tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Məqbərələr, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarları zamanın sərt sınaqlarına sinə gərərək, bu günümüzə gəlib çatmışlar.***

Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Şəki Xan Sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir. Belə abidələrə sahib olan Azərbaycanda da 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunur. Bu əlamətdar gün 1983-cü ildə UNESCO-nun yanında Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının Beynəlxalq Assambleyası tərəfindən təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində dövlətlərin yaranması ilə qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa olunub. Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib.

## Ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub

Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində "Şirvanşahlar Saray Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar Meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" Alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların Evi", Quba rayonunun Xınalıq kəndində "Əbu-Müslüm" və "Xıdır Nəbi" məscidləri, Şərur rayonunda "Qudi-Xatun" türbələri, Babək rayonunda "Əshab-ül-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" Xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb. Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə dövlət başçısının Sərəncamı bu sahədə həyata keçirilən tədbirlərin davamı oldu. Dövlət Proqramına əsasən, milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilib. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. 30 ilə yaxin işğal altında olan ərazilərimizdə və Qərbi Azərbaycanda vəhşi işğalçılar abidələrimizə, bizim tariximizə, mədəniyyətimizə divan tutublar. Bu abidləri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar. Tarixi mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və İran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd edir, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışıblar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdıb, yer üzündən siliblər. Qərbi Azərbaycan indiki Ermənistan torpaqlarında 1913- 1918-ci illərdə İrəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah İsmayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi İrəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edilib. O illərdə İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv ediblər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.Bütün bu əməllərlə Ermənistan "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasını, "Arxeoloji abidələrin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasını, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Paris Konvensiyasını, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Paris Konvensiyasını, "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasını və s. kobudcasına pozub.

## Tarixi abidələrimiz sırasında dini-mədəniyyət abidələrimiz də müstəsna yer tutur

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir.

Tarixi-dini abidələrin qorunması, təmir və bərpasına Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir. İstər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girecəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında yerləşən Pirsaat Baba ziyarətgahıdır. Şamaxı rayonunda Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahı əhalinin ən çox ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və 2019-cu ildə Şamaxıda baş verən zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2020-ci ildə burada bərpa-yenidənqurma işlərinə və yeni məscid binasının inşasına başlanılmışdır.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz bərpa olunur. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarixi- mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır. Təbii ki, tarixi abidələr daş yaddaşımıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Bu abidələrin qorunması hər birimizin borcudur.

***Zümrüd BAYRAMOVA***

# Qərbi Azərbaycan İcması Paşinyanı saxta təbliğatdan, böhtan və manipulyasiyadan çəkinməyə çağırıb

***Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanı Azərbaycana qarşı saxta təbliğatdan, böhtan və manipulyasiyadan çəkinməyə çağırıb. Bu barədə SİA-ya icmadan məlumat verilib.***



İcma N.Paşinyanın avqustun 11-də səsləndirdiyi fikirlərlə bağlı bildirib ki, regionda sülhə mane olan 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamış, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı həyata keçirmiş Ermənistandır:

"Təəssüf ki, "demokrat" Nikol Paşinyan sələflərinin bu siyasətini davam etdirmiş və Azərbaycanın işğal edilmiş ərazilərində səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı ilə danışıqlar prosesini tamamilə məhv etmişdir. Nikol Paşinyana həm də xatırladırıq ki, onun Milli Təhlükəsizlik Xidmətinin rəhbəri təyin etdiyi, sonradan Vətən müharibəsi zamanı Azərbaycana qarşı döyüşməyə gəlmiş, az sonra biabırcasına Qarabağdan qaçmış şəxs "Azərbaycana bir qarış da torpaq qaytarmayacağıq" kimi bəyanat vermiş, özünü "dahi strateq" hesab edən keçmiş müdafiə naziri isə daha da "irəli gedərək" Azərbaycanı "yeni ərazilər namine yeni müharibə" ilə hədələmişdir. 30 il ərzində dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan, əksinə işğalla qürrələn Ermənistanın indi qaranlıq keçmişi olan Luis Okampo adlı birisinin heç bir əsası olmayan kağız parçasına ümid bəsləməsi rəsmi İrəvanın düşdüyü acınacaqlı vəziyyətinin bariz nümunəsidir. Ermənistanın baş nazirini "soyqırımı" mövzusunda Azərbaycana qarşı saxta təbliğatdan, böhtan və manipulyasiyadan çəkinməyə çağırırıq".

Qərbi Azərbaycan İcması hesab edir ki, əgər Ermənistanın baş naziri həqiqətən də sülhdə maraqlıdırsa, onda ilk növbədə "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi dialoqu" kimi utopik və təxribatçı fikirlərə son qoymalıdır.

İcma bunu Ermənistanın Azərbaycana qarşı ərazi iddiasını indi başqa ad altında davam etdirməsi kimi qəbul edir. İcma hesab edir ki, "beynəlxalq mexanizm" nağılı həm də, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü şərtlə tanıması deməkdir:

"Bir tərəfdən Azərbaycanı "beynəlxalq mexanizm çərçivəsində Qarabağın erməni sakinləri ilə dialoqa" çağırıb, digər tərəfdən Qərbi Azərbaycan İcmasının dialoq təklifinə cavab verməyən, hətta azərbaycanlıların qayıdış hüququnu inkar edən Ermənistanın baş nazirinə xatırladırıq ki, onun rəhbər tutduğu "Əhali yoxdursa, problem də yoxdur" yanaşması tamamilə qəbuledilməz və təhlükəli yanaşmadır. Qərbi Azərbaycan İcması Nikol Paşinyanı Azərbaycanın daxili işlərinə qarışmamağa, müxtəlif süni bəhanələrlə sülh danışıqları prosesini uzatmamağa və Qərbi azərbaycanlıların qayıdışı məsələsini müzakirə etmək üçün bizimlə dialoqa başlamağa çağırır".

# Netanyahu Türkiyəyə niyə gəlmir?

## POLİTOLOQ ŞƏRH ETDİ



***"İsrailin Baş naziri Benyamin Netanyahunun iyulun 28-də Türkiyəyə gələcəyi gözlənilirdi. Lakin o, səhhəti ilə əlaqədar Türkiyə və Kiprə səfərlərini təxirə salmağa məcbur oldu. Hazırda Baş nazirin ofisi səfərlərin sentyabr ayına keçirilməsi haqda danışıqlar aparır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib.***

Onun sözlərinə görə, İsrail baş nazirinin Türkiyəyə səfəri indiki məqamda olduqca vacibdir: "Bu səfərdə həm Ankara, həm də Təl-Əviv maraqlıdır. Məsələ ondadır ki, Netanyahu 2010-cu ildə baş verən "Mavi Mərmərə" olayından sonra Türkiyəyə səfər etməyib. Hazırda Təl-Əviv və Ankara arasında münasibətlər 2010-cu ildən əvvəlki kimi olmasa da, qənaətbəxş hesab etmək olar. Yəni, münasibətlərin normallaşması və əvvəlki səviyyəyə qayıtması baxımından Netanyahunun Türkiyəyə səfəri vacibdir".

Turan Rzayev sözlərinə belə davam edib: "İsrail üçün hazırda regionda potensial təhdid İrandır. Rəsmi Tehranın uranı zənginləşdirməsi və nüvə silahı əldə etməyə çox yaxın olması, habelə radikal silahlı qruplaşmaları maliyyələşdirməsi Təl-Əviv üçün ciddi riskdir. Bu risk qarşısında İsrailin regionda əməkdaşlıq edə biləcəyi ən etibarlı ölkə, şübhəsiz Türkiyədir.

İsrailin Türkiyə ilə əməkdaşlığa ehtiyacı olduğu kimi, Türkiyənin də İsraillə əməkdaşlığa ehtiyacı var. Belə ki, lirə-dollar və lirə-avro balansı qurula bilmir. Rəsmi Ankara ölkəyə xarici investor və maliyyə cəlb etmək üçün səylər göstərir. "Mavi mərmərə" olaylarından əvvəl Türkiyədə iri yəhudi biznesmenlər, investorlar fəaliyyət göstərirdi. Ankara yenidən onları ölkəyə cəlb etmək istəyir. Bütün bunlara baxmayaraq, Ankaranın Fələstin məsələsində mövqeyi dəyişməz qalır. Türkiyə Qüdsü "qırmızı xətt"i olaraq qəbul edir. Bundan başqa, İsrailin genişlənməsi, aqressiv mövqeyi də Ankara tərəfindən xoş qarşılanmır.

Ankara tərəfləri bir araya gətirməkdə və problemləri həll etməkdə maraqlıdır. Təsadüfi deyil ki, Fələstin Prezidenti Mahmud Abbas iyulun 24-də Türkiyəyə səfər etdi. Əgər İsrail Baş naziri Benyamin Netanyahu iyulun 28-də Türkiyəyə səfər etsəydi, sentyabr, ya da oktyabrda üçtərəfli görüş baş tuta bilərdi.

Bununla belə, Netanyahunun sentyabrda Türkiyəyə səfəri fonunda bu məsələnin müzakirə edilməsi, 2023-cü ilin sonu və ya 2024-cü ilin birinci yarısında görüş keçirilməsi mümkündür".

***Ayşən Vəli***






# Qarabağda yaşayan ermənilər üçün bir yol var – reinteqrasiya

Postmüharibə dövründə ən çox müzakirə olunan məsələlərdən biri də Xankəndidəki ermənilərlə birgəyaşayış və separatçılarla nə cür danışılacağı idi. 44 günlük müharibədən sonra Azərbaycan bu məsələdə ermənilərə kifayət qədər vaxt verdi. Ancaq onlar bu güzəştdən doğru yararlanmaq əvəzinə, sui-istifadə etməyə çalışdılar. Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törədirlər.

Bu gün Xankəndidə yaşayan dinc ermənilərin böyük əksəriyyəti separatçıların boyunduruğundan çıxmaq və həyatını Azərbaycan vətəndaşları olaraq davam etdirmək istəyir. Amma təəssüf ki, oradakı oyuncaq qurumlar əhalinin təbii meyilinin, istəyinin qarşısını almaq üçün ağlasığmaz yalanlar uydururlar. Sözdə "Artsax Respublikasının Milli Təhlükəsizlik Xidməti" olan oyuncaq "qurum" yalandan iddia edir ki, guya Azərbaycan xüsusi xidmət orqanları "Artsax vətəndaşları" arasında panika yaratmağa çalışır. Guya "son günlərdə Azərbaycan xüsusi xidmət orqanları sosial şəbəkələr vasitəsilə "Artsax Respublikasının" (?) xalqına qarşı növbəti informasiya hücumu həyata keçirib. Erməni dilində dərc olunan yazılarda saxta tezislər və "vətəndaşlıq", "yüksək maaş", "hüquqların müdafiəsi" vədləri ilə əhali arasında psixoloji təzyiq göstərməyə, panika yaratmağa çalışır". Bu separatçıların iddiasıdır. Gerçəklik isə tamamilə başqadır. Məsələ erməni separatçılarının iddia etdiyi kimi deyil. "Azərbaycanın xüsusi xidmət orqanları Xankəndidəki ermənilərin arasına "nifaq" salır, fikirlərini döndərir, "təxribat" aparır" kimi iddialar tamamilə əsassızdır. Məsələ bundadır ki, Qarabağdakı dinc ermənilər artıq separatçıların boyunduruğundan xilas olmaq, rahat, dinc yaşamaq istəyir. Bəli, həqiqətən də orda ermənilərin fikri dönüb, parçalanıb. Nə qədər erməni etiraf edir ki, biz Azərbaycan vətəndaşı olmaq istəyirik, azərbaycanlılarla bir yerdə yaşamaq razusundayıq, birgə yaşamalıyıq. Bildiyimiz kimi, oyuncaq "dövlət"də müəyyən istefalar da olub, "məmurlar"ın çoxu istefa verib, onlar irəliyə getmək, separatizmi yürütmək istəmirlər. Sadə ermənilərin və bəzi keçmiş "məmurlar"ın Azərbaycana qarşı təbii meylini separatçılar başqa cür izah edirlər ki, guya bu, Azərbaycan xüsusi xidmət orqanlarının apardığı təbliğatla bağlıdır. Separatçılar erməni əhalinin könüllü inteqrasiyasının qarşısını almaq üçün bu cür iftiralar atırlar. Azərbaycan dövləti erməni vətəndaşlarımızın reinteqrasiyası üçün çox münbit şərait yaradıb və bu da onların könüllü şəkildə addım atmasına imkanlar açıb. Bu gün 25 min civarında olan erməni azlığın Azərbaycana inteqrasiyasının qarşısını almaq mümkünsüzdür. Bundan əlavə, Qarabağda təxribatlara ara verməyən separatçılar hər dəfə son gərginlikdən sonra müntəzəm olaraq beynəlxalq sülhməramlılara ehtiyac olması ilə bağlı şayiələri qızışdırır. Separatçıların fikrincə, ya 27 sentyabr 2020-ci ilə qədərki vəziyyət qaytarılmalı, ya bölgə Ermənistana tam şəkildə birləşdirilməli və Ermənistan silahlı qüvvələri burada yerləşdirilməlidir, ya da Rusiya digər donmuş münaqişələrdə olduğu kimi daha da irəli gedərək bölgəni özününküləşdirməlidir. Təbii ki, bütün bu cəfəng fikirlər qeyri-realdır və illüziyadan başqa bir şey deyil. Məsələn, hər dəfə beynəlxalq sülhməramlılar haqqında söhbətlərin ortaya atılması rus sülhməramlılarına təzyiq göstərməyə xidmət edir. Bu, işğaldan azad olunmuş ərazilərin yenidən işğal olunması kimi utopik səslənməsə də, yenə də onun həmin illüziya və ya arzudan əhəmiyyətli dərəcədə fərqləndiyini ifadə etmir. Təbii ki, beynəlxalq sülhməramlı qüvvələr mövzusu illüziya və xəyal deyil, lakin bir sıra səbəb və şəraitə görə bunlar burada reallaşa bilməz. Bunu hətta İrəvanın Laçın yoluna qondarma "beynəlxalq faktaraşdırıcı missiya" göndərmək təklifinin də beynəlxalq diqqət və bəyənmə almaması sübut edir.

Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində bu məsələyə nöqtə qoyub. Sitat: "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar... Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır... İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə gördülər".

***Sevinc Azadi***

# Əli Kərimli və Cəmil Həsənli özlərini rüsvay etdilər



Yalanmı, gerçəkmi deyilənə görə insan ya kasıbçılıqdan dünyasını dəyişir, ya da toxluqdan haqq dünyasına qovuşur. Yüz faiz əminəm ki, Afrikada və Ermənistanda insanlar kasıbçılıqdan və ya məşəqqətli həyata dözməyərək ölürlər. Ancaq toxluqdan, xüsusilə də varın, dövlətin, pulun, paran olduğu halda dünyadan köç edəsən, bu, bir balaca anlaşılan deyil. Düzdür, deyilənlərə görə, qədərindən artıq qida qəbul etdiyindən dünyadan köçənlər olur. Görünür, bundan çıxış edərək, "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli sosial şəbəkələrdə iddia edib ki, "acından ölür". Birincisi, Gültəkin Hacıbəyli varlı, karlı məxluqlardandır. Yəni pulunu, parasını balta kəsməz. Deputat olduğu vaxtlarda, onu-bunu jantaj edib, özünə böyük varidat toplayıb. Bu səbəbdən də onu imkanlı insan kimi tanıyırlar. Mülklərinin ümumi siyahısı belədir:

Goranboy rayonu, Xan Qərvənd kəndində 92 sotluq torpaq sahəsi və onun üzərində yerləşən 400 kv metr sahəsi olan fərdi yaşayış evi;

Abşeron rayonu, Xırdalan şəhərində 60 sot torpaq sahəsi;

Goradil kəndində 30 sot torpaq sahəsi;

Abşeron rayonu, Mehdiabad qəsəbəsində hər biri 4 sot olmaqla 3 torpaq sahəsi;

Abşeron rayonu, Mehdiabad qəsəbəsində 6 sot torpaq sahəsi;

Şamaxı rayonu, Qəleybuğurt kəndində 12 sot torpaq sahəsi;

Səbail rayonu, Şeyx Şamil küçəsində ofis;

Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251a ünvanında 178,18 kv metr sahəsi olan mənzil;

Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251a ünvanında 179,14 kv metr sahəsi olan digər mənzil;

Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti, ev 12/26 ünvanında 63,3 kv metr sahəsi olan mənzil;

Bakı şəhəri, Səbail rayonu, Mehdi Hüseyn küçəsi 61, ev 2 ünvanında mənzil;

Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 92 "A" ünvanında mənzil.

Jantaşçı müxalifətçi xanımın əldə etdiyi mal-mülk bu siyahı ilə bitmir. Araşdırmalar təsdiq edir ki, onun Türkiyə və Gürcüstanda da mal-mülkləri var. Bundan sonra onun deməsi ki, "acından ölürük" bir az saxtakarlıq, bir qədər də riyakarlıqdır. Ya da ki, bu məxluq daha çoxunu istəyir. Görünür, daha çoxuna nail olmaq üçündür ki, G.Hacıbəyli yazır ki, Qubad İbadoğlunun saxta ABŞ dolları kəsdiyi bəlli olandan sonra onu təkrarən LSE -ə dəvət etdilər ki, gəlin bizə saxta pul hazırlamaq bacarığınızı öyrədin: "Qubad bəylə əməkdaşlıq edilsə, dollar və manat kəsməyin sirrini öyrənmək olar. Dollar çap edən adam üçün, manat kəsmək su içmək qədər asan olmalıdır axı".

### Dağıdıcı müxalifətin Soros fondunun Cənubi Qafqaz üzrə koordinatoru Ceymis Şifordən təlimat aldığı aşkarlanıb

Maraqlıdır ki, cəmiyyətdə işvərən kimi tanınan, "Milli Şura" nın üzvü Tofiq Yaqublu da dolayısı ilə G.Hacıbəyli ilə həmrəy olduqlarını və dollar kəsmək üçün Q.İbadoğlunun təcrübəsindən bəhrələnməyin vacib olduğunu bildirib. Tam əminliklə demək olar ki, istər T.Yaqublunun, istərsə də G.Hacıbəylinin söylədikləri onların öz ağıllarının məhsulu deyil. Çünki onlarda ağıl olsa idi, kifayət qədər varı, dövlətləri olduğu halda, həyasızcasına "biz acından ölürük" deməzdilər. Deməli, bu cür dayaz düşüncənin sahibini kimsə yönəldir və ya ağıllarına deyil, ağızlarına gələni danışmağa məcbur edir? Kimdir ki, onlar? Təbii ki, Soros fondunun Cənubi Qafqaz üzrə koordinatoru Ceymis Şifor. Məlumdur ki, C.Şiforun AXCP sədri Əli Kərimli ilə virtual formada əlaqələri mövcuddur. Bu əlaqələrin isti olması səbəbindən Gürcüstandan AXCP - yə maliyyə vəsaitləri göndərilib. Xatırlayırsınızsa, dəfələrlə AXCP-nin sədr müavinləri qaçaqmalçılıq yolu ilə Azərbaycana Gürcüstandan valyuta keçirməyə cəhdlər göstəriblər. Qısası, fakt budur ki, T.Yaqublu və G.Hacıbəyli AXCP sədri Əli Kərimli vasitəsi ilə zəhərlənirlər. Bir növ Ə.Kərimli olub müxalifətin üz qarası. Dağıdıcı müxalifətin T.Yaqublu, G.Hacıbəyli, C.Həsənli kimi ünsürlərin islah olunmaları və sağlam cəmiyyətin normal vətəndaşlarına çevrilmələri üçün gərəkdir ki, ya Ə.Kərimli siyasətdən getməlidir, ya da xarici maraqlı dairələrin müxalifətlə əlaqələrinə son verilməlidir. Deyilənə görə, narkomanları həkim müayinəsi və müalicəsi sağalda bilməz, lazımdır ki, narkomanın sağalması üçün özündə iradə tapmalı, qətiyyət göstərməlidir. Əks halda qeyd etdiyim kimi iynə-dərmanla müalicə mənasızdır. Eləcə də T.Yaqublu, G.Hacıbəyli, C.Həsənli və digərləri cəmiyyətin normal vətəndaşları olmaq istəyirlərsə, mütləq özləri iradəli olmalı və kənar təsirlərə qarşı sərt müqavimət tədbirləri göstərməlidirlər. Əks halda, elə xəstə olaraq qalacaqlar.

**İ.ƏLİYEV**

# Ərzaq təhlükəsi(zliyi)



**Elçin Bayramlı**

***Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun inkişafı vacibdir. Xüsusilə də, aqrar sektorda perspektivli sahələrinin inkişafının ümumi daxili məhsulda və dövlət büdcəsinin gəlirlərində mühüm rol oynaya biləcəyi aydın məsələdir.***

Aqrar sektorda əsas vacib sahə, ilk növbədə, ərzaq istehsalı ilə bağlıdır. Xüsusən də, taxılçılıq, heyvandarlıq, kartof, meyvə-tərəvəz, balıqçılıq, üzümçülük və s. kənd təsərrüfatı sahələrinə dövlət dəstəyinin göstərilməsi vacibdir. Bu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Üstəlik, bu sahədən yaxşı gəlir də əldə etmək olar.

Son illərdə dövlətin bu sahəyə böyük investisiyalar qoyduğu, müxtəlif dövlət proqramları vasitəsilə güzəştlər tətbiq etdiyi müşahidə olunur. Lakin hələlik, əldə olunan nəticəni qənaətbəxş adlandırmaq olmaz. Faktiki olaraq, əhalinin ərzağa olan tələbatının təxminən yarısı idxal hesabına ödənilir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına baxanda məlum olur ki, son illərdə ölkəyə ərzaq məhsullarının idxalında davamlı artım var. Bu, o deməkdir ki, daxili istehsal azalır. Nəticədə, yerli bazarda əsas tələbat mallarının qiyməti əhalisinin gəlirləri bizdən 5-10 dəfə yüksək olan ölkələrdəki ilə eynidir, bəzi hallarda daha bahadır.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma mümkün olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, Rusiya, ABŞ, Belarus və Türkiyədə, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun, hətta bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və antiinhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə ərzaq qıtlığı və bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Kənd Təsərrüfatı Nazirliyi hər il bol məhsul haqda proqnoz verməklə və sonradan bunun baş verməməsinin günahını iqlim proseslərinin üzərinə atmaqdansa, vaxtında strateji aqrar proqramlar hazırlanıb yerinə yetirsə, daha məqsədəuyğun olardı.

Qəribəsi odur ki, ölkə özünü meyvə-tərəvəzlə artıqlaması ilə təmin edir, lakin bazarlar bu məhsulların xarici analoqları- genetik modifikasiya olunmuş məhsullarla doldurulub. Belə məhsullar yerli məhsullardan xeyli ucuz satılır. Yerli meyvə-tərəvəz bazarlarda baha satılsa da, bundan kəndli yox, alverçilər qazanır.

Kəndli məhsulunu min bir əziyyətlə əkib-biçəndən sonra onu ucuz qiymətə alverçilərə verməyə məcbur olur. Çünki hərdən təşkil olunan və az sayda fermerin iştirak etdiyi yarmarkaları nəzərə almasaq, onların öz məhsulunu sərbəst satması üçün lazımi şərait yaradılmayıb. Bu səbəbdən də, hər hansı bir məhsulu kəndlidən 20-30 qəpiyə alan möhtəkirlər onu ən azı 1 manata satırlar.

Belədə, iki tərəf uduzur- alıcılar və fermer özü. Bir tərəf də udur ki, bunlar da möhtəkirlərdir. Bu prosesdən qazanan daha bir tərəf isə xaricdən ərzaq idxal edənlərdir.

Dövlət başçısının ölkə iqtisadiyyatının diversifikasiya edilməsi haqda hökumətin üzərinə qoyduğu vəzifələr düzgün yerinə yetirilsə, həm neftdən sonrakı dövr üçün böyük və gəlirli istehsal sahələri yaradılmış olar, həm də əhalimiz xaricdən gətirilən mənşəyi dəqiq aydın olmayan keyfiyyətsiz ərzaq məhsullarından azad olub, öz torpağımızın təbii və təmiz məhsulu ilə qidalanmış olar.

# Ermənistanın çirkin təbliğatı

***Ermənilərin Pakistanın cənub bölgəsində baş vermiş qatar qəzasını ələ salmaları və bu ölkəyə qarşı çirkin təbliğat aparmaları ilə bağlı Pakistanın "Parliament Times" qəzetində məqalə dərc olunub.***

Jurnalist Hilal Əhmədin qələmə aldığı "Ermənistan çirkin təbliğat apararaq Pakistanın imicini ləkələməyə çalışır" sərlövhəli məqalədə avqustun 6-da Nəvabşah şəhəri yaxınlığında baş verən dəhşətli qəza nəticəsində aralarında qadın, uşaq və yaşlı sərnişinlər də daxil olmaqla 30-dan çox insanın həlak olduğu vurğulanıb. Təəssüf hissi ilə bildirilib ki, Ermənistan mediası çoxsaylı insan tələfatı ilə nəticələnən qatar qəzasını Pakistana qarşı qərəzli mövqeyinə görə ələ salmaqda davam edir. "Ermənilərin Pakistana qarşı mövqeyi nifrətə əsaslanır. Belə ki, Pakistan Qarabağ məsələsində haqlı mübarizəsində daim Azərbaycan dövlətini və xalqını dəstəkləyib. Pakistan Azərbaycan ərazilərinin qanunsuz işğalı ilə əlaqədar Ermənistanı müstəqil ölkə kimi tanımır. Eyni zamanda, Pakistan Qarabağ bölgəsinin Ermənistanın işğalından azad edilməsi üçün Azərbaycana ciddi dəstək verib", - deyə məqalədə qeyd olunub.

Yazıda Pakistanın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğu xatırlanıb. Pakistanın otuz ilə yaxın işğal altında olan Qarabağın və ətraf rayonların azad edilməsi ilə nəticələnən Vətən müharibəsində Azərbaycana dəstək verdiyi qeyd edilib: "2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdi. Bu, bir həqiqətdir ki, Pakistan Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün ədalətli mövqeyini daim dəstəkləyib. Azərbaycan heç bir kənar yardım olmadan İkinci Qarabağ müharibəsində qalib gələrək ərazi bütövlüyünü bərpa etdi".



Müəllif Pakistanın BMT və digər beynəlxalq platformalarda Azərbaycanın mövqeyini dəfələrlə dəstəklədiyini, Pakistan hökumətinin və xalqının hər zaman Azərbaycanın yanında olduğunu, Ermənistanın təcavüzünü pislədiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan da Kəşmir məsələsində Pakistanı dəstəkləyib və bu problemin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun qaydada həllinin tərəfdarı olduğunu bəyan edib. Azərbaycan Qarabağ məsələsində əsl dostu Pakistanın dəstəyini də ifadə edib.

"Qeyd etmək lazımdır ki, Pakistan Azərbaycan ilə sıx dostluq münasibətlərinə malikdir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Kəşmir üzrə Təmas Qrupunun üzvüdür. Hər iki ölkənin mühüm beynəlxalq məsələlərə dair yaxın baxışları var. Pakistan ilə Azərbaycanı möhkəm dostluq əlaqələri birləşdirir. Lakin Ermənistan və Hindistan Azərbaycan-Pakistan dostluq əlaqələrinə qarşı çıxır. Ermənistan Hindistan hökumətini məmnun etmək üçün Pakistana qarşı yalan təbliğatla məşğuldur. Təsadüfi deyil ki, bu yaxınlarda Hindistanın Ermənistana silah tədarük etməsi ilə bağlı mətbuatda da təkzibedilməz məlumat yayılmışdı", - deyə məqalədə vurğulanıb.Xatırladaq ki, məqalənin müəllifi Hilal Əhməd bu ilin martında xarici media nümayəndələrindən ibarət heyətin tərkibində işğaldan azad olunmuş ərazilərə səfər edib.

# Yeməklərdə duzu hansı inqrediyentlərlə əvəz edə bilərik?



*Duz dünyada ən çox yayılmış və əlverişli minerallardan biridir. Həmçinin, bitki və heyvan növlərinin gündəlik həyatında mühüm rol oynayır. Bir çox insanlar yeməklərə dad vermək üçün hər gün duzdan istifadə edirlər, çünki duzluluq dadı insanın əsas zövqlərindən biridir. Daş duzu, halit, adi duz və ya süfrə duzu adlanan bu mineral natrium xloriddən ibarətdir. Bir çox bitki və heyvan toxumalarında, eləcə də su hövzələrində tapılan duz, məlum olan ən qədim qida ədviyyatı və konservantıdır. Qeydlər bu təcrübənin 8000 il əvvələ aid olduğunu göstərir. Britaniya Geoloji Xidməti (BGS) və Amerika Birləşmiş Ştatları Geoloji Xidmətinin (USGS) məlumatları göstərir ki, Çin, ABŞ, Hindistan, Almaniya və Kanada dünyanın aparıcı duz istehsal edən ölkələrindəndir.*





### Ölkə üzrə duz istehsalı

**Çin**

Duz onilliklər ərzində Çində əsas gəlir mənbəyi olmuşdur. Əvvəlcə sülalələr istehsallarını inhisara aldılar. 1949-cu ildə yeni yaranmış Çin Xalq Respublikası sənayenin dövlət inhisarçılığı yolu ilə bu tendensiyanı davam etdirdi və 2003-cü ildə duz istehsalını idarə etmək və tənzimləmək üçün müstəqil dövlət qurumları yaradıldı ki, bu da inhisarın saxlanmasına kömək etdi. Çin Milli Duz Sənayesi Korporasiyası sənayeyə nəzarət etmək üçün səlahiyyətli orqandır və təxminən 48,476 nəfərdən ibarət işçi heyətinə və 7 milyard dollardan çox gəlirə malikdir. Hazırda Çin ildə 68 milyon 517 min 465 ton duz istehsal edir. Yüksək istehsal səviyyəsinə baxmayaraq, duzun maya dəyəri də nisbətən yüksək olaraq qalır ki, bu da inhisarçılığın səbəbidir.

### Amerika Birləşmiş Ştatları

ABŞ orta illik 44,312,914 ton istehsalla ikinci yerdədir ki, bu da dünya üzrə ikinci duz ehtiyatının 14,54%-ni təşkil edir. Maraqlıdır ki, cəmi 7 ştat milli istehsalın 95%-nin istehsalına cavabdehdir. Birləşmiş Ştatlar sualtı günbəzlərdə və başqa yerlərdə bol duz ehtiyatlarına və yataqlarına malikdir, halbuki 28 şirkət Kanzas, Yuta, Luiziana, Ohayo, Miçiqan və Nyu York da daxil olmaqla 16 ştatda 67 duz zavodunu idarə etmək səlahiyyətinə malikdir.



### Hindistan

Hindistan dünya duz istehsalında 8,86%-ə çataraq 27 006 626 ton təxmin edilən dünya duz istehsalında üçüncü yeri tutur. Ölkənin müstəqillik qazandığı 1947-ci ildə Hindistan İngiltərədən duz idxal etdi, lakin o vaxtdan ölkə duz istehsalında qlobal liderə çevrildi. Hindistan duzu əsasən dəniz duzlu sularından, göl duzlu sularından, qaya duzu yataqlarından və yeraltı duzlu sulardan çıxarır. Hindistanda cəmi 11,799 duz istehsalçısı var, onların 87,6%-i duz istehsalı sahəsi 10 hektardan az olan kiçik miqyaslı istehsalçılardır. Hindistanın mərkəzi hökuməti Duz Müvəkkili Ofisi vasitəsilə duz sənayesinin hər bir sahəsinə nəzarət edir.

### Bəs, yeməklərdə duzu nə ilə əvəz edə bilərik?

**SİA mövzu ilə bağlı araşdırma aparıb.** İnsanların demək olar ki, əksəriyyəti duzlu yeməkləri sevir. Duz istifadəsini azaltmağın faydaları isə saysız-hesabsızdır. Duza aludə olandan sonra nə duzsuz qidalardan, nə də duz əvəzediciləri ilə hazırlanmış yeməklərdən hezz ala bilərsiniz. Əksər qidalarda olan duzun orqanizmdə maye balansının qurulmasında əhəmiyyətli yeri var. Duz istifadəsinin azaldılması qan təzyiqini tənzimləməyə və bədəndə maye balansını saxlamağa kömək edir. Çox duz istehlakı qan təzyiqi, ürək xəstəlikləri, insult və ödəm kimi bir çox xəstəliyin əsasını təşkil edir.

### Duzu azaltmağın faydalarını və fəndlərini aşağıdakı kimi sadalaya bilərik:

- Hər porsiyada 400 mq-dan çox duz olan qidaların istehlakını məhdudlaşdırın.
- Duz qəbulunu tədricən azaltmağa davam edin. Dad hüceyrələrinizə yeni dadları sınamağa kömək edin.
- Əgər pəhriz saxlayırsınızsa, özünüz üçün xüsusi yeməklər hazırlayın. Duz yerinə sarıkök, rozmarin, sirkə, zəncəfil, limon, qara bibər, soğan və sarımsaq kimi ləzzətlərdən istifadə edin.
- Pəhrizinizə yeni otlar və ədviyyatlar əlavə edin. Müxtəlif ölkə mətbəxlərindən yeməklər bişirməyə çalışın.
- Bir qaba çox ədviyyat qoymaqdan çəkinin.
- Yeməklərinizi duzdan başqa baharatlarla dadlandırın.

### Duzun azaldılması arıqlamağa səbəb olur?

Duz istehlakı sizdə ödem və şişkinlik hiss etməyə səbəb olur. Bu, sizi narahat edə bilər və düşünərsiniz ki, sanki kökəlmisiniz. Duzun kalorili dəyəri yoxdur.

### Ədviyyat və duzsuz yemək bişirməyə başlamaq üçün ipuçları:

Rosemary: Göbələk, bişmiş kartof, doldurulmuş ət və ət.

Kəklikotu: Balıq, ət və quş əti, pomidor, lobya, göbələk, kartof

Dəfnə yarpağı: Ət və şorbalar

Şüyüd: Toyuq, qatıq, xiyar, pomidor, kartof, çuğundur.

*Ardı Səh. 11*

ARAŞDIRMA

# Yeməklərdə duzu hansı inqrediyentlərlə əvəz edə bilərik?







**Əvvəli-Səh-10**

Fesleğen: Pomidor, makaron, toyuq, balıq və qabıqlı balıq

Paprika: Kartof, şorba, balıq və salat

Cirə: Ət, dolma, küftə, quş əti və balıq.

Cilantro: Düyü, lobya, balıq, quş əti, tərəvəz və salatlar.

Karri: Quzu və ya ət yeməkləri, şorbalar.

Zəncəfil: Toyuq, düyü və şorba

Sarıkök: Tərəvəz yeməkləri, şorba və ət

### Otlar nə vaxt istifadə edilməlidir?

Qurudulmuş otları yeməyi bişirməyə başladıqdan dərhal sonra, təzə otları isə bişirmə prosesinin sonuna qədər əlavə edin. Beləliklə, qurudulmuş otların sıx dadı bütün yeməyə keçir, təzə otlar isə təravətini saxlayır.

İzah etməyə çalışdığım kimi, duz istehlakının azaldılması yeməyimizə nə əlavə etdiyimizlə bağlıdır. Burada məqsəd özünüzü aşağı natriumlu pəhrizlə məhdudlaşdırmaq deyil, duzdan başqa bütün növ göyərti və ədviyyatlardan həzz almaqdır.

### Duzdan tamamilə imtina bədənə necə təsir edir?

Son zamanlar bir çox insan duzdan az istifadə edir. Duzun sağlamlığa zərərli olduğunu bildirərək ondan tamamilə imtina edənlər də var. Bəs bu nə dərəcədə doğrudur? Mütəxəssislər bildirirlər ki, duz bədənimizin normal işləməsinə kömək edən mühüm elektrolitdir. Belə ki, məcburi olmasa da, duzdan tamamilə uzaq olmaq orqanizmimizdə bəzi problemlər yarada bilər. Bunun başlanğıcında aşağı natrium var.

Duzu həyatınızdan tamamilə çıxarmazdan əvvəl, bədəninizin bu dəyişikliyə necə reaksiya verəcəyini anlamağa çalışın. Bunun üçün duzdan uzaq durmağı tövsiyə edən bir çox pəhrizlərdən birini seçib onu həyata keçirməyə başlaya bilərsiniz. Həmçinin, belə qərarlar verməzdən əvvəl mütəxəssislə məsləhətləşmək çox vacibdir. Həyatımızdan duzu nəzarətsiz çıxardığımızda yaşaya biləcəyimiz problemlər bunlardır:

-Yodlaşdırılmış duz hormonlar üçün vacibdir və duz qəbulunu tamamilə kəssəniz, yoddan məhrum ola bilərsiniz.

- Nəticədə problemli və quru dəri, əzələ zəifliyi, yorğunluq və çəki problemləri ilə qarşılaşa bilərsiniz.

- Aşağı natrium pəhrizinin, xüsusən də ürək problemləri olan insanlar üçün bir çox faydası olduğu qeyd edilmişdir. Ancaq bu, hər kəs üçün olmaya bilər, xüsusən də ürəyiniz kifayət qədər sağlamdırsa.

- Lazım olduğundan daha az və ya daha çox duz istehlak etməyin mövcud ürək vəziyyətinizi daha da pisləşdirə biləcəyini göstərən araşdırmalar var.

- Bu insulin müqavimətini artıra bilər. Araşdırmalar kifayət qədər natrium almadığınız zaman insulin müqavimətini təsir edə biləcəyini ortaya qoydu. Bu o deməkdir ki, bədənimiz insulinə yaxşı reaksiya verməyi üçün qan şəkərinin daha yüksək olduğunu görə bilərik.

- Dehidrasiya əlamətləri ilə qarşılaşa bilərsiniz. Əgər qanınızda natrium səviyyəsi aşağı düşərsə, susuzlaşdırma simptomlarına bənzəyən problemlərlə üzləşə bilərsiniz. Yəni ağızda quruluq, başgicəllənmə, susuzluq və tualetə getmə tezliyinin azalması kimi problemlər natrium azlığı ilə bağlı ola bilər.

- Ürəyiniz bulanmağa başlaya bilər. Duz istehlak etməmək xolesterol səviyyələrinə də təsir edə bilər.

Pəhriz yeməklərinin dadlı olması üçün duzu hansı ədviyyatlarla əvəz edə bilərik?

Televiziyada, internetdə, qəzetlərdə, bir sözlə artıq ağlımıza gələn hər mühitdə davamlı olaraq araşdırılan sağlam qidalanmanın üç ağdan biri olan duzdan uzaq durmaqla mümkün olduğunu bilirik.

Az miqdarda duz bədən tarazlığı üçün zəruri mineral mənbəyidir, lakin duz istifadəsi miqdarını çoxaldırsınızsa, kiçik dəyişikliklər edərək tədbir görməkdə fayda var.

Duz qabını yemək masasından çıxararaq təsirli bir addımla başlaya bilərsiniz. Duzu həyatınızdan mümkün qədər çıxardıqdan sonra, yeməklərə ən azı duz qədər dad verəcək yeni maddələr əlavə etməlisiniz.

Burada duzu əvəz edə biləcək inqrediyentlər var:

**1. Sarımsaq**

Sarımsaq bütün yeməklər üçün əla ətirdir. Sevmədiyiniz yeməyə bir neçə diş sarımsaq əlavə etməklə duzsuz, amma dadlı yemək hazırlamaq mümkündür.

**2. Soğan tozu**

Soğan bütün yeməklərimizdə mütləqdir. Tərkibindəki allisin maddəsi sayəsində duz qəbulunu azaltmağa kömək edən soğan tozu duza ən sağlam alternativlərdən biridir. Ağlınıza gələn hər yeməyə soğan tozunu qatmaqla tam fərqli dadla nəticə əldə edə bilərsiniz.

**3. Anis**

Anis faydalı və qidalı tərkibi sayəsində həmişə ideal variantlardan biri olmağa layiqdir. Xüsusilə ət və tərəvəz yeməkləri üçün faydalı olan orta miqdarda anisdən istifadə etməklə duza daha sağlam alternativ əldə edə bilərsiniz və həzm sisteminizin daha yaxşı işləməsini də təmin edə bilərsiniz.

**4. Kəklikotu**

Ən çox istifadə edilən ədviyyatlardan biri olsa da, duza alternativ kimi tanınmır. Toyuq, ət və tərəvəz yeməklərində duz yerinə vitamin, mineral və antiseptik xüsusiyyətlərə malik olan kəklikotu istifadə etmək sağlamlığınız üçün çox faydalıdır.

**5. Qara bibər**

Hər evin süfrəsində əsas ədviyyatlardan biri qara bibərdir.

**6. Cirə**

Küftə kimi bir çox yeməklərdə istifadə edilən zirənin dadından duzdan xilas olmaq üçün istifadə edin. Antioksidant xüsusiyyəti və xolesterin salıcı təsiri sayəsində bol faydası olan cirəni bir çox yeməklərinizdə istifadə edib duz dadını unuda bilərsiniz.

**7. Nanə**

Şirin və duzlu yeməklərdə təravətləndirici bir bitkidir. Pəncərə kənarında dibçəkdə və ya bağda əkimi asandır. Adətən salatlarda, makaronda və ya kuskusda üstünlük verilir. Bu, qatıq və qatıq şorbalarında güclü ətir verdiyi üçün duzun istifadəsini azaltmağa kömək edə bilər.

**8. Adaçayı**

Həm təzə, həm də qovrulmuş adaçayının dadı olduqca güclüdür. Biz adətən çay içməyə öyrəşmiş olsaq da, o, yağ sousları, qovrulmuş balqabaq, kartof püresi və risotto kimi yeməklərdə gözəl bir dad verir. Həmçinin, qanın laxtalanmasında rol oynayan K vitamini ilə zəngindir.

**9. Reyhan**

Tərəvəzdən ətə, pendirə və təzə meyvəyə qədər bir çox müxtəlif qidaları tamamlayan reyhanın inanılmaz dadı və ətri var. Güclü ətirli ədviyyat olduğundan az miqdarda istifadə etsəniz də fərqi görə bilərsiniz. Başlanğıc olaraq pizzaları, makaronları, sote edilmiş tərəvəzləri sınaya bilərsiniz. Reyhan A, C, E və K vitaminləri ilə də zəngindir.

**10. Cəfəri**

Əksər təzə otlar kimi, cəfəridə natrium azdır, lakin dadlıdır. Təzə dadına görə makaron, püresi və tomat pastası şorbalarında əla duz alternatividir.

**11. Keşniş**

Keşniş ədviyyatı öz bitkisinin toxumlarından əldə edilir. Demək olar ki, sitrusa bənzər bir ətir var. Hindistan və Meksika mətbəxində tez-tez istifadə olunur. Tərkibində quercetin və tokoferol kimi çoxsaylı antioksidanlar var. Heyvanlar üzərində aparılan tədqiqatlar göstərib ki, bu birləşmələr beyin sağlamlığını və toxunulmazlığını artıra bilir.

**12. Balzamik sirkə**

Balzamik sirkənin kəskin, turş dadı və bir az şirinliyi var. Yeməklərin, xüsusilə salatların duza olan ehtiyacını minimuma endirir. Şorbalarda istifadə edə bilərsiniz. Təzə pomidorların və ya qovrulmuş tərəvəzlərin üzərinə səpsəniz, daha dadlı dad alacaqsınız.

**13. Alma sirkəsi**

Alma sirkəsi şirin və turş dadı ilə yeməklərə natriumsuz bir dad qatır. Heyvanlar üzərində aparılan tədqiqatlar göstərir ki, sirkə xolesterini aşağı salır, ürək xəstəliyi riskini azaldır və qan şəkərinin səviyyəsini aşağı salmağa kömək edir. Bununla belə, bu mövzuda daha çox tədqiqata ehtiyac var, çünki insan tədqiqatları ziddiyyətli nəticələrə malikdir. Onu müalicəvi məqsədlər üçün istifadə etməyə çalışmaqdansa, salat və yeməklərdə dadından faydalanmağa davam etməliyik.

**14. Zəncəfil**

Sote, souslar, turşular, çay və şorbalara təzə və ya qurudulmuş zəncəfil əlavə edə bilərsiniz. Kəskin və şirin dadı ilə bir çox yeməklərdə öz yerini tuta bilir. Üstəlik, bu kök bitkisi iltihab əleyhinə (iltihab azaldıcı) təsirinə görə əsrlər boyu dərman məqsədləri üçün istifadə edilmişdir.

**15. Şüyüd**

Şüyüd cəfəri ailəsinə aiddir və aşağı kalorilidir. Xüsusilə balıq, kartof və xiyarla hazırlanan yeməklərdə yaxşı alternativdir. Kartof salatının əsas ədviyyatı ola bilər. Balıq yeməkləri üçün limon suyu ilə əlavə edə bilərsiniz.

**16. Rozmarin**

Təzə və ya qurudulmuş rozmarin şorbalara və souslara əlavə edə bilərsiniz.

**17. Limon suyu və limon qabığı**

Turşu mənbəyi olan limon suyu yeməklərin sonunda yeməklərə əlavə edilməlidir. Tərəvəzlərin rəngini dəyişir. Duz kimi fəaliyyət göstərir, yeməyin dadını çıxarır. Limon qabığı dadı ilə yeməklərə güclü ətir verir. Limon suyunu balıq, toyuq və tərəvəzdə sınamaq məsləhət görülür.

*Ayşən Vəli*

# "Azərbaycan öz haqqı uğrunda mübarizə apardı və qalib gəldi"



*"Hazırda Ermənistanla Azərbaycan arasında müharibə bitsə də, hələ də cənab Prezident İlham Əliyev beynəlxalq aləmə münasibətlərin gələcək vəziyyətiylə bağlı açıqlama verir". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.*

Onun sözlərinə görə, bu gün Azərbaycan bir çox nüfuzlu tiribunalarda və dünyanın aparıcı mətbuatlarında öz sözünü deyir: "Cənab prezident bu illər ərzində Euronews və digər aparıcı xarici mətbuatlara dəfələrlə Qarabağla, oradakı ermənilərin taleyiylə bağlı açıqlamalar verib. Beynəlxalq aləmin ikili standartlarını ifşa edib. Mən deyərdim ki, dünya birlikləri də öz ədaləti və demokratik olmayan siyasətinə bələddir. Bütün hallarda Azərbaycan öz haqqı uğrunda mübarizə apardı və qalib gəldi. İndi bizi qarşıda daha çətin yol gözləyir. Əsrlərdir türkə düşmən kəsilmiş, onun qanını tökməyə hər an hazır olan terrorçuların daima düşmən yetişdirdiyi bir cəmiyyətlə barışıq yolundayıq. Tarix boyu bu baş verib, dünyada elə münaqişə ocaqları olub ki, bu cəmiyyətlər problemi tam həll etməsələr də düşmənçilik mövqeyindən əl çəkiblər. Amma Azərbaycan elə bir strategiya tətbiq edir ki, həm münaqişə ədalətli şəkildə həll olundu, həm də əsrlərin kinini, nifrətini məhv etmək yolunda fəaliyyət gedir. Dünyada bir çox müharibələr, problemlər var, elə bunlardan ən yaxın keçmişdə olanlardan Ukraynada, Gürcüstanda olan münaqişəni deyə bilərik.

Cənab Prezidentin də öz müsahibəsində qeyd etdiyi kimi dünya Cənubi Qafqazda olan iki münaqişəyə ədalətli yanaşa bilmir. Həqiqətən bunun özü məhz elə beynəlxalq təşkilatların riyakarlığından xəbər verir. Gürcüstan dəstəklənir, lakin Azərbaycanın tapdalanan haqqı heç bir demokratik təşkilatları narahat etmir və hətta dövlətimizə qarşı mövqe nümayiş etdirilir. Mən deyərdim ki, regiondakı bu problemin əsl mahiyyəti hər kəsə məlumdur, hətta ən qatı ermənipərəst dövlətlər də bilir ki, Azərbaycan torpaqları deyəndə haradan hara məsafə nəzərdə tutulur. Məhz Fransa hər zaman Ermənistanı müdafiə edən çıxışlar etsə də Azərbaycanın ərazisinə dair ilk xəritə elə fransız mətbuatında çap olunmuşdu. Bu da faktdır ki, hətta Azərbaycan qədim tarixi və geniş əraziləri olan bir dövlət olub. Biz indi Azərbaycan SSR-nin malik olduğu sərhədlər daxilində süverenliyimizi bərpa etmişik.

Müsahibə zamanı cənab Prezident Laçın yolundakı vəziyyətlə bağlı da danışıb. Məncə, Laçın yolundakı vəziyyət barədə dəfələrlə kifayət qədər sübut dəlillərlə lazımi beynəlxalq qurumlara məlumat göndərilib. Lakin hələ də israrla Laçındakı dövlətimizin suveren hüququndan irəli gələrək sərhəd buraxılış məntəqəsi qurmasını başqa cür qələmə verməyə çalışırlar. Cənab Prezident Qırmızı Xaç komitəsinin Laçın yolundakı dırnaqarası humanitar yardımlarıyla bağlı da lazımi açıqlamanı verdi. Düşünürəm ki, bu qədər faktlarla kəskin çıxışdan sonra beynəlxalq qurumlar hələ də israrlı şəkildə dırnaqarası blokadadan danışmamalıdırlar".

**Ayşən Vəli**

# Roskosmos "Luna-25" stansiyasını Ayın Cənub Qütbünə göndərdi



Rusiyanın "Luna-25" avtomatik stansiyası "Fregat"ın yuxarı pilləsindən ayrılaraq onu Aya uçuş yoluna çıxarıb. SİA xəbər verir ki, bu barədə Roskosmos məlumat yayıb. Stansiya Moskva vaxtı ilə saat 2.11-də "Soyuz 2.1b" raketi vasitəsilə "Vostoçnı" kosmodromundan buraxılıb. 9 dəqiqədən sonra "Luna-25 stansiyası" ilə "Fregat" yuxarı pilləsi raketin 3-cü pilləsindən ayrılaraq aşağı Yer orbitinə daxil olub.

Yuxarı pillənin stansiyadan ayrılmasından sonra 2-ci mərhələ "Luna-25"in Yerin təbii peykinə uçuşu olacaq və bu, təxminən 5 gün çəkəcək. Stansiyanın uçuş trayektoriyasının 2 korreksiyası planlaşdırılır: 1-cisi-buraxılışdan 1,5 gün sonra, 2-cisi - Ay ətrafında orbitə çıxmazdan bir gün əvvəl.

Stansiyanın hərəkət sisteminin köməyi ilə ləngiməsi ilə 3-cü mərhələ başlayacaq- hündürlüyü 100 kilometr olan dairəvi dairəvi orbitdə Ay ətrafında uçuş 3 gün davam edəcək. 4-cü mərhələdə "Luna-25" minimum 18 kilometr yüksəklikdə elliptik eniş orbitinə keçəcək. Hesablamaları apardıqdan sonra Ayın Cənub Qütbü bölgəsində yumşaq eniş baş verməlidir.

"Luna-25" çətin relyefi olan Ayın Cənub Qütbü bölgəsinə yumşaq eniş edən ilk stansiya olacaq. Bütün digər stansiyalar Ayın ekvator zonasına endirilib. Stansiyanın əsas məqsədi Ay torpağında buzun olub-olmaması ilə bağlı kontakt tədqiqatları aparmaqdır. "Luna-25" həm də müasir Rusiya tarixində ilk Ay stansiyası olacaq. Yerin peykinə göndərilən sonuncu Sovet kosmik gəmisi 1976-cı ildə buraxılıb və "Luna-24" adlandırılıb.

**Elçin**

TARİXDƏ İLK



Mətanət Məmmədova

## DİQQƏT: supermarketlər bizi super aldadır

***Marketlər bizə köhnə ərzaq satırlar, bəli, satırlar. Elə ötən günlərdə biz jurnalistlər özümüz dəfələrlə belə hallarla qarşılaşmışıq və yazmışıq. Köhnəyə təzəni əlavə edib başımızı aldadırlar, bəli, aldadırlar. Məsələn, bir kiloqram ət alırsan, yarısı qara rəngə çalır, yarısı qırmızı rəngə. Aldığımız ərzaq və tərəvəzin qiymətinin bəzən kassa çeki ilə əlaqəsi olmur, bəli, olmur, həm də dəfələrlə belə olur. Elə bu yaxınlarda mən özüm belə bir halla qarşılaşmışam.***

Hazırda isə, əziz sakinlər, ehtiyatlı olun, marketlər guya ərzaq və digər məhsullarda endirim edirlər, lakin kassada bizə onun əvvəlki qiymətini ödədirlər. Əksər marketlərdə bu, belə olduğundan bir-bir marketlərin adını saymağa ehtiyac durmadım. Çünki atalar da deyir ki, sözü at ortaya, yiyəsi götürəcək.

Özümün də başıma gəlib. İki gün öncə isə supermarketlərdən birində kassa qarşısında utanan gənc bir qadının başına gələnləri də seyr etdim. Deməli, xanım cəmi üç adda məhsul götürmüşdü. Onlardan biri endirim qiymətinə imiş. Xanım da hesablayıb ki, hər üçü birlikdə filan qiymətə olacaq, pul qabında da bir o qədər pul var. Götürüb gəlib kassaya. Kassada isə ona ayrı qiymət dedilər. Kaş ki, siz o qadının insanların içərisində düşdüyü vəziyyəti görə bilərdiniz. "Axı bu qədər etməməli idi",- dedi. Və başladı pul qabını qurtulamağa. Kassir isə, "yox, belə edir",- dedi. Xanım isə "axı bu butulkada endirim yazılmışdı" deyə gileyləndi. Kassir də bir xeyli girələnəndən sonra axır dedi ki, yox, endirim yoxdur. Gənc xanım isə ala bilmədi, çünki üzərində o qədər pul yox idi. Həmin butulkanı kassaya qoyub, digər iki ərzağın pulunu ödəyib çıxdı.

Bu yaxınlarda marketlərdən birindən şor almışdım. Qiyməti endirimdə idi. Nə isə, aldım, çıxdım, evdə təsadüfən çekə baxanda gördüm ki, endirimli qiymətə hesablanmayıb. Səhəri gəldim marketə, müdiri çağırdım, sözümü dedim, lakin az qala məni borclu çıxarmışdılar, lakin təəssüf, çıxara bilmədilər. Çünki ağıllı olub əvvəldən şəkillər çəkmişdim.

Market müdirinə dedim ki, bəlkə dünən mənim cibimdə yalnız bu şorun endirimli qiyməti qədər pul vardı. Bəs mən kassa qarşısında nə vəziyyətə düşərdim? O isə bunu mən düşündüyüm qədər də həyəcanla qarşılamadı. Bax o gənc xanım mənim düşəcəyim vəziyyətə düşdü. Kassa qarşısında ödəməyə pulu olmadı və utandı. Yəni supermarket onu utandırdı, hissləri ilə oynadı. Bu günlərdə böyük marketlərdən birində bir xanımın gileyi ilə qarşılaşdım. Soruşanda, dedi ki, sarı etiketlərə nə alsanız, diqqətli olun, kassada adamı aldadırlar.

Bilirsiniz, diqqət etmirik. Giririk marketə xeyli ərzaq, tərəvəz və digər məhsullardan alıb çıxırıq. Endirimdə olan məhsullara diqqət etmirik. Məsələn, mənin yuxarıda qeyd etdiyim həmin çekə baxmağın ilk dəfə idi. Çoxları da mənim kimi. Çekə diqqət etmirik, ancaq çox aldadılırıq. Yalnız az sayda məhsul alanda bu hiss olunur.

Marketlərə sual olunur: niyə belə edirsiniz? Məgər az qazanırsınız ki, bu yola da əl atırsınız? Bir düşünün ki, satdığınız məhsulları hansı qiymətə alıb, camaata hansı qiymətə satırsınız. Xeyriniz qat-qatdır. Bununla kifayətlənməyib hər gün məhsulları onsuz da 1-2 qəpik qaldırırsınız. Görəndə ki, məhsulun istifadə müddəti bitir, bu zaman guya endirim edib alıcı yığmaq istəyirsiniz, o da qaş düzəltdiyiniz yerdə göz çıxarırsınız. Ancaq bunu da bilə-bilə edirsiniz.

Sizlərə kim bu haqqı verir ki, camaata yalan satırsınız? Sizlərə bu haqqı kim verir ki, camaatı aldadırsınız? Sizlərə bu haqqı kim verir ki, kassa qarşısında insanların hissləri ilə oynayırsınız?..

Diqqətli olun, əziz alıcılar. Gözlərinizi dörd açın, baxın. Nə üçün biz 1 manat yerinə 2 manat xərcləməliyik. Bir manat yerinə 1 qəpik də xərcləməyin. Görürsünüz, marketlər torbaları da bizə 3 qəpiyə satırlar. Hansı ki, satıcı satdığı məhsulu nəyinsə içərisinə qoyun təqdim etməlidir. Hələ kassada sual da verirlər. Torba lazım olacaq?

-Yox, qoltuğumuzda daşıyacağıq.

Belə isə, onlar 3 qəpiklərinin dəyərini bilirlərsə, biz nə üçün 1 qəpiyimizin qiymətini bilməyək. Ərinməyin, aldıqlarınızı çəklə tutuşdurun, endirimli məhsulların şəklini çəkin, kassada qiymətlərə diqqət edin, pulunuzu əlinizdən alanlarla bundan başqa mübarizə yolu yoxdur...

# Saxta "humanitar fəlakət" şousu





***Postmünaqişə dövrünün əsas reallıqlarından biri bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün sülh müqaviləsinin imzalanmasıdır. Prezident İlham Əliyevin "10 min kvadratkilometrdən çox ərazinin Ermənistan tərəfindən dağıdılmasına baxmayaraq, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz Ermənistana sülh təklif etdik» çağırışı sülh təklifinin edildiyi zamandan Ermənistana və ona havadarlıq edən dövlətlərə ciddi mesajla bərabər, dərs oldu.***

## *Qərəzli bəyanatlar, siyasi şantaj və manipulyasiya keçməyəcək: Hamı yeni reallığı qəbul etməlidir!*

30 ildə xalqımızın başına gətirilən faciələr azmış kimi hələ postmünaqişə dövründə də sülh müqaviləsini imzalamamaq, vaxt qazanmaq üçün Azərbaycan-Ermənistan sərhədində erməni silahlı birləşmələrinin təxribatlar törətməri, itkilərə səbəb olmaları, həmçinin "humanitar vəziyyət", "blokada" kimi heç bir əsası olmayan təbliğatları dünyanı niyə narahat etmir? Əksinə, bəzi güclər, beynəlxalq qurumların nümayəndələri Ermənistanın "humanitar fəlakət" kimi şoularına dəstək olmaqla vəziyyəti gərginləşdirməyə çalışırlar.

Bu günlərdə BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin guya Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlandığı və "Dağlıq Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı barədə bəyanatı ölkəmiz tərəfindən sərt reaksiya ilə qarşılandı. Azərbaycan Xarici İşlər Nazirliyi bu bəyanatı dərhal cavablandıraraq bildirdi ki, 30 ildə Azərbaycan ərazilərinin işğalına, 1 milyona yaxın qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasına, son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğuna, məcburi köçkünlərin öz evlərinə geri qayıtmasına maneçilik törədilməsinə göz yuman BMT xüsusi məruzəçilərinin və ekspertlərinin Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verməsi narahatlıq doğurur. Bununla yanaşı, həmin şəxslərin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyərək bəyanatda "Dağlıq Qarabağ" kimi ifadələr işlətməsi, ölkəmizin daxili işlərinə qarışması və ikili yanaşmalar tətbiq etməsi qəbuledilməzdir.



Xatırladaq ki, dövlət başçısı İlham Əliyev 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyasında ümumi müzakirələr çərçivəsində çıxışında müharibə ərzində Azərbaycanın işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini, ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kəndi azad etdiyini, Ermənistanın kapitulyasiya aktına imza atmağa, işğalçı dövlətin öz qoşunlarını Azərbaycanın digər ərazilərindən – Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildiyini önə çəkərək bu çağırışları etmişdir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. 2021-ci il 7 iyul tarixli Fərman ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yaratmışıq. Cənab İlham Əliyev BMT tribunasından belə bir çağırışı da etmişdi: "Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram." Onu da qeyd edək ki, sülh müqaviləsinin imzalanması ilə bağlı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin, Rusiya və ABŞ-ın təşəbbüsləri ilə keçirilən görüşlərdə də «Dağlıq Qarabağ», «ATƏT-in Minsk qrupu» ifadələri işlədilmir. Artıq Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Buna görə də beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin ekspert və xüsusi məruzəçiləri də Azərbaycanın suverenliyinə və Konstitusiyasına hörmətlə yanaşmalıdırlar.

Azərbaycan Xarici İşlər Nazirliyinin sözügedən bəyanata cavabında o da qeyd edilir ki, Ermənistan öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrini torpaqlarımızdan tam olaraq çıxarmamaqla yanaşı, Laçın yolu vasitəsilə onların rotasiyasını həyata keçirib, silah-sursatla təchiz edib, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi ilə məşğul olub. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatlar tərəfindən susqunluqla qarşılanıb. Azərbaycan məhz öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində Laçın sərhəd-buraxılış məntəqəsi təsis edib.

Beynəlxalq Ədalət Məhkəməsinin də 6 iyul tarixli qərarında bu sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müraciəti yekdilliklə rədd etməsi bir daha Ermənistan tərəfinin iddialarının əsassız olduğunu sübut edir. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi ərazilərimizdə qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda, 15 iyun tarixində sərhədçilərimizin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, yük avtomobillərinin 26 iyul tarixində Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Hadisələrin təhlili göstərir ki, ermənilərin əraziyə girişin guya bloklaması, "humanitar fəlakət" barədə iddiaları siyasi şantaj və manipulyasiyadır. Azərbaycan hazırda bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün səy göstərir və bu məqsədlə sülh sazişi, delimitasiya, kommunikasiyaların açılması istiqamətində təşəbbüslər irəli sürür. Təbii ki, bu səyləri dəstəkləmək əvəzinə qərəzli bəyanatlar verilməsi prosesə müsbət təsir etməyəcək.

Son iki ildən artıq dövrdə dünya siyasətində baş verən yeniliklərə diqqət yetirsək supergüclərin, nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə dəstəyini aydın şəkildə görərik. Diqqət çəkən məqamlardan biri də budur ki, həmin güclər, beynəlxalq təşkilatlar Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləyir, sülh müqaviləsinin imzalanması üçün üzərlərinə düşən vəzifəni yerinə yetirməyə hazır olduqlarını bildirirlər. Buna əmin olmaq üçün hazırda müxtəlif formatlarda və məkanlarda keçirilən görüşlərdə əldə olunan nəticələrə diqqət yetirmək kifayətdir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, həmçinin Rusiya və ABŞ-ın təşəbbüsü ilə keçirilən görüşlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın beynəlxalq hüququn 5 əsas prinsipini özündə əks etdirən sülh təklifini dəstəkləyib, Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda konkret məqam yetişəndə hələ də tərəddüd etdiyini gizlədə bilmir. Dövlət başçısı İlham Əliyev xarici media nümayəndələrinin iştirakı ilə keçirilən Şuşa Qlobal Media Forumundakə çıxışında bu məqama xüsusi diqqət yönəltdi. Bildirdi ki, hazırda hamı yeni reallığı nəzərə almalıdır. Çünki 30 illik işğal, dağıntılar dövrünü, həmçinin İkinci Qarabağ müharibəsinin reallıqlarını qəbul etmədən məsələnin həllini düşünmək mümkün deyil. Lakin hazırda beynəlxalq vasitəçilərin səyləri kifayət deyil: «Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesdə dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur. Çünki düşünürəm ki, Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sonuncu mühüm məqamdır.»

Bu gün Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləyən güclər yaxşı olardı ki, bu reallığı məhz 30 illik işğal dövründə bildirərdilər. Bu, sözsüz ki, Ermənistana sanksiyaların tətbiqi, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT qətnamələrinə hörmətin edilməsi tələbi ilə müşaiət olunacaqdı. Amma o zaman həmin güclər susmağa, daha dəqiq desək, Ermənistana dəstək olmağa üstünlük verdilər. Ədaləti, beynəlxalq hüququ maraqlarına qurban verməklə, hər zaman qeyd etdiyimiz kimi, dünyada etimadsızlıq mühiti yaratdılar. Bu isə ona gətirib çıxardı ki, Azərbaycan məsələni özü həll etmək qərarına gəldi. 27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin növbəti dəfə Azərbaycan ərazilərini müxtəlif istiqamətlərdən raket atəşinə tutması, dünyanın yenə də seyrçi mövqedə dayanması Azərbaycan dövlətinin, xalqının səbir kasasını doldurdu. Başlanan əks-hücum əməliyyatı tarixi Zəfərimizlə başa çatdı.

Bu gün qürurla qeyd etdiyimiz reallıqlardan biri budur ki, Azərbaycan işğal dövrünün Azərbaycanı deyil. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq. Bu, bizim milli ideyamızdır. Əvvəllər milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi. İndi artıq işğaldan azad olunmuş Azərbaycan yüksəlməkdədir. Bu əminlik də ifadə edilir ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq. Bu uğurların əsasında dövlət başçısı İlham Əliyevin fikirlərinə istinadən qeyd etdiyimiz kimi, Azərbaycanın gələcəklə bağlı konkret gündəliyinin olması durur.

***Yeganə Əliyeva***

*Tarixi reallıq ondan ibarətdir ki, bir millət dövlət rəhbərlərinin düzgün, ağıllı siyasət aparması ilə ucalır və inkişaf edir. Yanlış və səhv siyasətin aparılması nəinki dövlətlərin dağılmasına, eləcə də millətlərin varlığının təhlükə altında qalması ilə nəticələnir. Bununla bağlı çoxsaylı faktlar və sübutlar göstərmək olar və bu zaman bir daha aydın olar ki, bu gün dövlət quruluşundan məhrum olan xalqlar günahkar axtarışı aparan zaman, birinci növbədə, öz içərilərinə nəzər yetirməlidir. Çünki problem öz aralarındadır. Əminliklə demək olar ki, bu gün fars-molla rejiminin müasir dünyanın bir hissəsi ola bilməməsinin əsas günahkarı irticaçı rejimin bəşəri dəyərlərin tələb və istəklərinə zidd siyasət aparmasıdır.*

# Fars-molla rejimi bəşəriyyət üçün ləkədir











Bundan çıxış edərək qeyd etmək ola ki, terroru dövlət siyasətinə çevirən fars-molla rejimi dağılmağa məhkumdur. Öz xalqına fəlakət yaradan, minlərlə insanı zindanlarda çürüdən rejim mütləq və mütləq məhvə məhkumdur. Əminəm ki, gözlənilənlər reallaşacaq və molla rejimi tarixin zibilliyinə atılacaq. Bu zaman güneydə müstəqil Azərbaycan dövləti yaranacaq və təbii ki, paytaxtı tarixi şəhərimiz olan Təbriz olacaq. Bunu terrorçu xislətli molla rejimi də anlayır. Hər vəchlə güneylilərin müstəqilliyə gedən yolunu əngəlləməyə çalışır. Lakin istəklərinə nail ola bilməyəcəklər. Necə ki, Qarabağdakı separatçı ermənilərə hər cür silah-sursat, maliyyə yardımları göstərsələr də, sonda məğlubiyyətə uğradılar elə erməni qardaşları kimi. Azərbaycanın müzəffər ordusu ermənilərin və onlara hərbi siyasi dəstək verənlərin başlarını dəmir yumruqla əzməklə 30 il işğal altında olmuş torpaqlarımızı azad etdik. Bu gün Qarabağımız azaddır. İşğaldan azad edilmiş ərazilərdə geniş quruculuq, abadlıq, tikinti işləri həyat keçirilir. İnsanlar öz doğma yurd-yuvalarına qayıtmaqla o yerlərə yeni həyat bəxş edirlər. Fars-molla rejimi, Fransa və digər məkrli qüvvələr hələ də ermənilərə öz qardaşlıq, bacılıq yardımlarını göstərməyə cəhdlər göstərirlər. Hətta hakimiyyətlərin yuxarı eşalonunda təmsil olunanlar açıq şəkildə ermənilərə dəstək nümayiş etdirirlər.

## Fars-molla rejimi çökməyə məhkumdur

Bugünlərdə fars-molla rejiminin baş mollası Xomneyi "Zəngəzur bizim qırmızı xəttimizdir" deyə cəfəng fikir irəli sürmüşdür. Digər əbalı və başı çalmalı mollalar da ermənilərin himayəçisi rolunda çıxış edirlər. Halbuki fars-molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi Xomeneyidən qalma ideologiyaya görə (bu, həm də xomeneyizm ideologiyası adlanır), müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. Amma molla rejiminin indiki və əvvəlki prezidentlərinin



apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Hazırkı prezident İbrahim Rəisi və əvvəlki terror başçıları özlərini Xomeneyinin davamçıları kimi cəmiyyətlərinə sırımağa çalıblar. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı evəşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozublar. Bu gün də eyni dəstək siyasətlərini davam etdirirlər. Vəziyyət o həddə çatıb ki, molla rejimi jurnalistləri də özləri kimi erməni maraqlarına zəhərləyiblər. "Səhər" televiziyası sanki İrəvandan erməni tribunası olaraq yayımlanır. Fars- molla rejiminin əsas mətbu orqanlarından olan "İran diplomatiyası" saytında "İranın ərazi bütövlüyünün qırmızı xətti olan bölgə: Tehran Qarabağda passiv yanaşmadan əl çəkməlidir" başlıqlı məqalə dərc olunub. Başdan ayağa erməni təəssübkeşliyi ruhunda yazılan məqalədə molla rejimi növbəti dəfə həddini aşaraq düşmənçiliyini ortaya qoyur.

Məqalədə "Dağlıq Qarabağ Muxtar bölgəsi", "Stepanakert", "Qırmızı xətt" ifadələri işlədilib ki, bu da rejimin mahiyyətindən irəli gəlir. Fars-molla rejimini təşvişə salan və ciddi narahat edən əsas problemlərindən biri Laçın sərhəd keçid məntəqəsindən Qarabağdakı ermənilərə yüklərin daşınmamasıdır. Məlum faktdır ki, bir il öncə molla rejimi müxtəlif quruplarla 27 diversantı Xankəndinə göndərmişdir. İndi isə bu keçid tam şəkildə Azərbaycan sərhədçilərinin nəzarətindədir. Bu isə molla rejiminin və digər xarici terrorçu dəstələrin Xankəndinə qanunsuz yüklərin, o cümlədən də, silah-sursatın daşınmasını qeyri-mümkün edib. Məlumatlara görə, artıq molla rejiminin Xankəndidəki diversantları müxtəlif yollarla ərazidən qaçıblar. Təbii ki, əgər diversantlar Qarabağda qalsa idi, onlar ərazilərdə müxtəlif terror aktları törədə bilərdilər. Çünki həmin diversantlar, məhz terror aktları planlaşdırmaq üçün ermənilərə yardıma göndərilmişdilər. Araşdırma apararkən məlum olur ki, fars-molla rejiminin yaratdığı terrorçu mərkəzlərinin əksəriyyəti Azərbaycana qarşı yönəlib. Siyahıya nəzər yetirək: Fələstin və Livanda - Hizbullah. İraq-Muqtəda əlsədr qruplaşması, "1920 İnqilab Briqadaları", İraq Milli İslami Müqavimət partiyası. "Tuqaylar"ın yolu, "Ceyşul İslam", "Ceyşul Mücahidin", "Şiə Bədr Briqadaları", "Əhl Hak" qruplaşması ,"Muxtar Ordusu", "Sarallah Tuqayları", "Mehdi Ordusu", Suriya – Bəşər əsəd rejimi və şiə qrupları, Yəmən-Husilər, Azərbaycan-İslam partiyası, Müsəlman birliyi hərəkatı, Birlik təşkilatı, Hüseyn aşiqləri qrupu, Qarabağ islami müqavimət təşkilatı. Məhz bu kimi terror təşkilatları ilə fars-molla rejimi dünyanın müxtəlif bölgələrində terror aktları həyata keçirir.

## Hər il molla rejimi 100 milyard dollar terrorizmin maliyyələşməsinə vəsait ayırır

Rəsmi məlumata görə, molla rejimi hər il terrorizmin maliyyələşməsinə 100 milyardlarla dollar vəsait ayırır. Suriyada, Əfqanıstanda, İraqda, Nigerdə, Afrikada və digər yerlərdə tökülən qanlarda fars-molla rejiminin əli və rolu var. Öz xalqı acından qırılır, yoxsulluq və aclıq içində inildəyir, terrora 100 milyard dollar pul xərcləyir. Ölkədə insan hüququ və azalıqlarının müdafiəsindən söhbət gedə bilməz. Addımbaşı insanlar təqib olunur, döyülür, təhqir olunur, zindanlara atılaraq çürüdülür. Azərbaycanın Milli Məclisin deputatı Nəsib Məhəməliyev bu barədə deyir: "İran və insan hüquqları tam antoqonist fikirlərdir. Hansı insan haqlarından danışmaq olar ki, 21-ci əsrdə insanları küçələrdə qaldırıcı kranlardan asır, fərqli düşüncələrinə görə edam edirlər. Özünü dini lider adlandıran şəxs meydanlarda etiraz səslərini qaldıranlara qarşı amansız davranmaları barədə hərbçilərə əmr verir, səkkiz, doqquz yaşlı qız uşaqlarının siğə yolu ilə ərə verilməsini İslam dininə uyğunluğunu bəyan edir. Bir-iki saatlıq siğə ilə fahişəliyi stimullaşdırır. Bütün bunlar İslam deyil, əksinə, İslam adına ləkədir. İranın təbliğ etdiyi "dinin" əsl İslam dininə, müqəddəs Qurani-Kərimə heç bir aidiyyəti yoxdur. Bunun kökündə duran əsas səbəb fars-molla rejiminin hələ də Sasanilər imperiyasının darmadağın edilməsi ilə barışa bilməməsidir. Quranın saxtalaşdırılmasından tutmuş, dinə aidiyyəti olmayan çoxsaylı adətənənələrin, nağılların uydurulması bununla əlaqədardır. İranın İslam statusundan məhrum edilməsi ilə bağlı hüquqi mexanizm yoxdur. Belə məsələlər hər bir ölkənin öz işidir. İran onsuz da, antiinsani, antibəşəri siyasətinə görə 1979-cu ildən bəri beynəlxalq sanksiyalar altındadır. Yaxşı olardı ki, İslam Əməkdaşlıq Təşkilatı Ərəb Liqası, Afrika Birliyi kimi beynəlxalq təşkilatlar da İranın əcaib rejimi ilə hər hansı əməkdaşlıqdan imtina etsinlər. Hər kəsə bəllidir ki, İranın əsas amalı İslam dininin parçalanması, İslam ölkələrində anarxiyanın, xaosun yaradılmasıdır. İranın Yəməndə, İraqda, Suriyada, Livanda və başqa ölkələrdə törətdiyi cinayətlər xüsusi amansızlıqlarla, vəhşiliklərlə müşayiət olunmuş, milyonlarla insanın faciəsi ilə nəticələnmişdir. Din pərdəsi altında, "bismillahir-rəhmanirrəhim" kəlməsi ilə belə ağır cinayətləri ancaq İblis edə bilər".

Bir sözlə, fəlakət dünyanın qapısı qarşısındadır. Bir tərəfdə terrorçu fars-molla rejimi, digər tərəfdə isə vəhşi toplumdan ibarət olan Ermənistan. Bəşəriyyət dinclik tapmaq istəyir ki, birlik və bərabərlik nümayiş etdirərək, bu iki terrorçu rejimi məhv etməlidir. Əks halda, insan ölümləri, dağıntılar davam edəcək.

**İ.ƏLİYEV**

TƏHLİL

***Texnologiya o qədər sürətlə yenilənir ki, əvvəl eşitmədiyimiz, görmədiyimiz yeni texnologiyalar və süni intellekt anlayışları ilə qarşılaşırıq, öyrənməyə çalışırıq, hələ öyrənmədən yeni texnoloji imkanlar barədə eşidirik. Biz bu texnologiya və yeniliklərlə tanış olub öyrəndiyimiz prosesdə bir çox peşə tarixə çevrilir. Bəs hansı peşəni öyrənməliyik ki, gələcəkdə işsiz və pulsuz qalmayaq?***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Gələcək, bu peşələr ilə gələcək!

### Aktuar mütəxəssisi

Aktuar və ya aktuar mütəxəssisi kimi tanınan bu peşəyə yiyələnən insanlar, maliyyə risklərinin qiymətləndirilməsi, buna uyğun həllərin işlənib hazırlanması və bu istiqamətdə təkliflər verməklə uzunmüddətli perspektivdə yarana biləcək nəticələri təhlil edirlər. Bu qiymətləndirmələri edərkən o, ölüm, xəsarət, xəstəlik, əlillik və ya təqaüdəçıxma kimi hadisələri, həmçinin oğurluq, qəzalar, zəlzələ, daşqın və ya yanğın kimi fəlakətləri əhatə edən risk qiymətləndirməsini aparır. Risk təhlili nəticəsində maliyyə itkilərinin qarşısını almaq və ya minimuma endirmək üçün bəzi addımlar təqdim edir.

### Epidemioloq

Epidemioloqlar cəmiyyətdə baş verə biləcək xəstəliklərin, eləcə də bununla bağlı sağlamlıq vəziyyətinin və bədbəxt hadisələrin əvvəlindən axıra qədər araşdırma prosesini həyata keçirən şəxslərdir. Araşdırma zamanı hadisənin başvermə tezliyi, yeri və forması kimi bir çox kriteriyalardan istifadə edərək təhlil edirlər. Bu təhlil nəticəsində əldə edilən məlumatlar işığında onlar yeni tədbirlərin görülməsinə və yol xəritəsinin yaradılmasına öz töhfələrini verirlər. Xüsusilə, Covid-19 pandemiyasından sonra bu peşə sahiblərinə ehtiyac çoxaldı.

### Mobil tətbiq və oyun tərtibatçı

Bu peşə qrupunda olan insanları həyatımızda daha tez-tez görürük, lakin onların daha çox görəcəyimiz olduğunu etiraf etməliyik. Mobil proqram və ya oyun tərtibatçıları, alış-verişdən oyuna, təhlükəsizlikdən bank əməliyyatlarına, sağlamlıqdan musiqi dinləməyə qədər bir çox fərqli sahədə xidmət göstərirlər.

### Maliyyə meneceri

Maliyyə menecerləri, maliyyə əməliyyatlarının hazırlanması və idarə edilməsi proseslərinin ekspertidir. Şirkət və ya qurumun maliyyə proseslərini idarə edən işçi şirkət üçün böyük əhəmiyyət kəsb edir. Gələcəkdə maliyyə sektorunun daha da böyüyəcəyini nəzərə alsaq, maliyyə menecerlərinə tələbatın daha da çoxalacağını deyə bilərik.

### Sənaye məlumatı mütəxəssisi

Sənaye məlumatlarının toplanmasına və bu məlumatların fonunda təhlillərin aparılmasına imkan verən, istehsal proseslərini daha dəqiq və ixtisaslı idarə edən şəxslərdir. Xüsusilə, onlayn alış-verişin artması səbəbindən gələcəyin məşhur peşələri arasında olacaqlar.

### Robot koordinasiya mütəxəssisi

Bu gün istehsal proseslərində robotlardan istifadə edilir və robotlardan istifadə günü-gündən artır. Ona görə də robotlar bizim yeni peşələrlə tanış olmağımıza səbəb olacaq. Gələcəyin ən populyar peşələrindən biri robot koordinasiya mütəxəssisidir. Bu mütəxəssislər robotların effektiv işləməsi, eləcə də təmir və texniki xidmət prinsiplərini nəzərdən keçirirlər.



### İOT mütəxəssisi

Əşyaların interneti kimi tanınan anlayışdan xəbəriniz varmı? İOT kimi qısaldılmış bu konsepsiya ətrafımızda olan, demək olar ki, hər şeyin internetə qoşulduğuna işarə edir. Başqa sözlə, ağıllı binalardakı kondisionerlər, siqnalizasiya sistemləri, təhlükəsizlik kameraları və bir çox başqa şeylər əşyaların interneti üçün başlanğıc mərhələlərdir. Yaxın gələcəkdə biz internet bağlantısı vasitəsilə bütün elektron cihazları, hətta uzaqdan da idarə edə biləcəyik. Ona görə də bu sahədə işləmək üçün təlim keçmiş kadrlara ehtiyac yaranacaq.

### Məlumat detektivi

Məlumat detektivləri, əşyaların interneti və internet şəbəkələri adlanan texnologiyadan əldə edilən məlumatları təhlil edərək müvafiq şəxs və ya qurumlara ötürəcək. Müxtəlif şirkətlər bu texnologiyadan bazarı düzgün təhlil etmək üçün istifadə edir və ona məhsul və ya xidmətlərin satışına xeyli vaxt və pul sərf edirlər. Amma data detektivi vaxta və pula qənaət edə bildiyi üçün bu peşənin gələcəyin peşələri arasında olacağını deyə bilərik.

### Məlumat təhlükəsizliyi mütəxəssisi

Valideynlər, həm özlərini, həm də uşaqlarını internet və texnologiyanın arzuolunmaz nəticələrindən qorumaq üçün gələcəkdə daha çox səy göstərəcəklər. Yaxın gələcəkdə kiberhücum terminini daha tez-tez eşidəcəyimizə inanılır. Bu cür hücumlara qarşı qabaqlayıcı iş aparmaq, vacib məlumatları gizlətmək və ya lazım gəldikdə onu aradan qaldırmaq məlumat təhlükəsizliyi üzrə mütəxəssislərin işi olacaq.

### Ağıllı şəhər eksperti

Ağıllı şəhərlər, kəndlər, eləcə də ağıllı evlər həyatımızın mərkəzinə çevrilmək üzrədir. Gələcəkdə bu şəhərlərin sayı milyonlarla ölçülən sensorlar (qəbuledicilər) ilə təchiz ediləcəyi gözlənilir. Bu sensorlar elektrik, internet, su, təbii qaz və tullantı kimi bir çox prosesdə istifadə olunacaq. Buna görə də vizual intellekt baxımından şanslı olan ağıllı şəhər mütəxəssislərinin üzərinə mümkün nasazlıqlarda böyük vəzifə düşəcək.

### Süni intellekt mütəxəssisi

Yaxın gələcəkdə bir çox fərqli yerdə, xüsusilə sağlamlıq, texnologiya və istehsal kimi sahələrdə süni intellektin nemətlərindən faydalanmağa başlayacağıq. Müvafiq olaraq, süni intellekt sahəsində mütəxəssislərə ehtiyac duyulacaq. Süni intellekt təcrübəsi süni intellekt texnologiyaları və tətbiqlərində dərin bilik və bacarıq tələb edir. Süni intellekt üzrə ekspertlər süni intellekt alqoritmlərinin inkişafı, təlim modellərinin hazırlanması və tətbiqi kimi proseslərdə ekspertlərdir. Bu mütəxəssislər müxtəlif məlumat mənbələrindən məlumatları təhlil edə, nümunələri kəşf edə və öyrənmə üsullarından istifadə edərək mürəkkəb problemlərin həlli yollarını tapa bilərlər. Süni intellekt mütəxəssisləri süni intellekt texnologiyalarından, avtomatlaşdırma, görüntü və səsin tanınması, proqnozlaşdırıcı analiz kimi bir çox müxtəlif sahələrdə istifadə edə bilərlər.

### İqlim və ekologiya mühəndisi

Müxtəlif amillərə görə iqlim fəlakətləri, daşqınlar, quraqlıqlar və meşə yanğınları səbəbindən iqlimi analiz elminə ehtiyac artır. Hava və iqlimləri araşdıran və buna uyğun həll yolları istehsal edən iqlim elminin əhəmiyyəti bu cür fəlakətlərlə yaxşı başa düşülməyə başladı. Bu hidrometerologiya deyil, daha dərin araşdırma tələb edən elmdir. Buna görə də, hava nəzarəti mühəndisliyi yeni dövrün ən populyar peşələri, başqa sözlə, gələcəyin peşələri arasında artıq öz yerini tutub. Qlobal istiləşmənin mənfi təsirlərini aradan qaldırmaq və ya yumşaltmaq üçün bütün bəşəriyyətin hava-iqlim nəzarəti mühəndislərinə ehtiyacı olacaq. Eyni zamanda dünya əhalisinin sürətlə artması, təsirini günü-gündən artıran qlobal istiləşmə, yaşayış yerlərinin azalması və ya məhv olması, su ehtiyatlarına çıxış imkanları sürətlə artdıqca ekologiya mütəxəssislərinə ehtiyacın artacağını söyləmək mümkündür. Bu gün ekologiya üzrə mütəxəssislərin sayının çox az olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu sahəni seçib özünü inkişaf etdirənlərin qarşıdakı illərdə çox mühüm işlərdə işləmək potensialı var.

### Biometrik üzoxuma mütəxəssisi

Müasir dünyada insanın yalnız jest və mimikalarına diqqət yetirməklə, üz hərəkətlərini araşdıraraq bu barədə məlumat əldə etmək mümkündür. Bəzən hətta onların xarakteri və oriyentasiyası haqqında fikir verə bilər. "Antroface" kimi tanınan biometrik üz oxunması və identifikasiyası təhlükəsizlik orqanları, psixoloqlar, psixiatrlar və işə götürənlər tərəfindən istifadə olunur. Üztanıma ilə maraqlananlar üçün ən gözəl peşələr arasında yer alan biometrik üzoxuma sahəsi maraqlı ola bilər. Yaxın vaxtlarda bu sahədə özünü inkişaf etdirmiş mütəxəssislərə tələbat olacağını söyləmək mümkündür.



### Mexatronika mühəndisi

İstər indiki, istərsə də gələcək peşələr arasında birinci yerdə olan bu mexatronika mühəndisliyi maşınqayırma və elektron mühəndisliyin birləşməsi kimi qəbul edilsə də, çoxşaxəli bir sahə kimi qəbul edilməlidir. Çünki maşınqayırma, elektrik və elektron mühəndislik, kompüter mühəndisliyi, mühəndislik və bəziləri sənaye mühəndisliyi sahəsinə daxil olan işləri görə bilirlər. Mexatronika mühəndisləri olanlar avtomobil, robot istehsalı və aviasiya da daxil olmaqla geniş sahələrdə iş tapa bilərlər. Üstəlik, bütün dünyada ehtiyac duyulan bir peşə olduğu üçün istədikləri yerdə iş tapmaq şansı da var.

### Metaverse peşələri

İnanılmaz sürətlə inkişaf edən texnologiyanın ən yeni sahələrindən biri kimi ortaya çıxan "Metaverse" (uydurma kainat) anlayışı peşələrə də təsir göstərməyə və dəyişdirməyə başladı. Mütəxəssislərin fikrincə, 2030-cu ilə qədər metaverse ilə əlaqəli onlarla biznes istiqamətləri və peşələr meydana çıxacaq. Yeni dövrün ən populyar peşələri arasında metaverse tədqiqatçısı, planneri, ekosistem tərtibatçısı, kiber təhlükəsizlik mütəxəssisi, metaverse təlimçisi sahələri var.

***Lalə Mehralı***

ARAŞDIRMA

# Nə gözəl yağışdır...

FELYETON



***Yayın cırhacırıdır? Hava çox istidir? Hamı gileylənir? Canını qoymağa yer tapmır? Hara gedəcəyini bilmir? Bizə nə? Bizdə ki, belə deyil. Deyəndə ki, bir az əməli saleh adam olun, bəziləri az qalırlar adamın başını yarsınlar ki, niyə, bizə nə olub ki?.. O olub ki, budur ey, istidən ölürsünüz, canınızı qoymağa bir yer tapa bilmirsiniz.***

Lakin bizdə belə deyil axı. Allah-təalanın sevdiyi insanlardanıq. Ona görə də bizə fərqli tale yazıb. İstidir, hə, nə olsun ki? Bu istini ki, biz hiss etmirik... Yağışdır ki, yağır. Ha isti olsun: bir yandan istiləyirik, bir yandan da sərinləyirik.

Allah köməkləri olsun, ən ağıllı insanlar Bakı şəhərində yaşayır. Deyir, çətin günün qeydinə gərək yaxşı günlərdə qalasan. Bu deyim də elə bax, bizdən yana yaranıb. Yaxşı günlərimizdə, yəni ev alıb təmirə başlayanda düşünə bilmişik ki, qarşıda çətin günlər ola bilər. Biz də bu çətin günlərə elə hazırlıq görmüşük ki, həmin çətin gün yetişən kimi öhdəsindən gəlirik.

Məsələn, bunlardan təkcə birini deyəcəm. Çünki söyləyəcəyim o bir günümüz üçün o qədər aktualdır ki, ta deyə bilmərəm. Havanın istisi 40 dərəcəni aşıb da, bilirsiniz. Günlərdir ki, əksər ölkələr od tutub yanır. Dünya istidən bişir. Biz bu istini hiss etmirik. O səbəbdən ki, bizdə isti olsa da, amma yağış da ara vermir. Hər gün yağır, küçədə adama elə sərinlik bəxş edir ki, deyirsən, İlahi, cənnətdəyəm ki...

Bu yağışı bəxş edənə min alqış, iki min alqış... Heç istəməzdim deyəm, çünki gəlib bizdən öyrənib sonra öz adlarına çıxacaqlar. Lakin deməyəndə də olmur axı. Onsuz da bu, bir tərəfdən bilinəcək, oğrular da gedib öz ölkə-şəhərlərində tətbiq edəcək, adı da olacaq onların. Deməli, məsələ belədir ki, bizdə yaxşı ustalar var. Evləri təmir edəndə elə məsləhətlər verirlər ki, çətin günə hazırlıq xarakteri daşıyır. Məsələn, deyirlər ki, kondisioner üçün kanalizasiya xəttinə heç bir halda ehtiyac yoxdur. Hələ durub neçə metr boru almalısan, onu evin içindən keçirib balkona aparmalısan, kondisionerə birləşdirməlisən. Buna nə ehtiyac var ki?.. Sudur da, Allahın suyu, guya bu su axıb yerə töküləndə nə olacaq ki? Bir ovuc sudur da... Guya bu su 24-cü, 25-ci mərtəbədən ətrafa yayılanda nə olacaq ki? Sudur da, elə bil yağışdır, yağır. Elə bil, yağışdır, yox, elə əsl yağışdır. İsti küçələrlə addımlayırsan, bir də baxırsan ki, üzünə su çilənir. Elə xoş gəlir, elə sərinləyirsən ki... Deyirsən istəyir havanın temperaturu 40-ı keçsin və ya 50-ni , nə fərqi var?.. Bizim şəhər ki, həmişə yağışlıdır...

Aşağı mərtəbələrdə isə bu kondisionerlərin suyu küçələrə axıdılır. Hə, nə olsun, əvvəllər küçələrə su səpmirdik ki, yar gələndə toz olmasın? Son vaxtlar bu adətimizi unutmuşduq. Sağ olsun ev sahibləri də, ustalar da. Ona görə sağ olsunlar ki, həm köhnə adətimizi yeniləyirlər, həm də isti havaya sərinlik qatırlar. Aşağı mərtəbələrin küçəyə axan suyu düzdür, yağış olub başımıza yağmasa da, ayaqlarımıza təmas edərək canımıza sərinlik bəxş edir. Necə? Belə ki, küçədəki dekorativ daşların altına dolur, onlara nəmlik bəxş edir, belə olanda onlar da yerlərindən azacıq şəkildə ayrılmış olurlar, sən də ayağını qoyanda altındakı su şappıltı ilə ayaqlarına səpələnir. Bu da olur yayın isti günlərində sərinləmənin bir növü.

Halal olsun bizim şəhərin kondisioner üçün kanalizasiyaya ehtiyac duymayan sakinlərinə. Sonra da deyirlər, Azərbaycanda ta ixtira-filan olmur, bunlar ötən əsrlərdə qalıb. Ağıllı adamlar da ötən əsrlərdə yaşayıb. Bəs bu, ixtira deyil, nədir? Yaxşı, qoy, dünyanın başqa ölkələrində də bu, bir nəfərin ağlına gəlsin də. Görürsünüz, biz nə qədər ağıllı, yenilikçiyik? Həm də yeni əsrimizdə...

gözəl yağış yağır... Yayın isti günlərində küçələrdə başına ələnən su damlaları, yerdən ayaqlarına təmas edən qəfləti su sıçramaları ilə sərinləyən şəhər sakinləri hər dəfə bunu hiss edəndə "nə gözəl yağış yağır",- deyirlər. Və sevinirlər ki, məhz bu şəhərdə yaşayırlar.

Həqiqətən də bu şəhərdə yaşamaq necə də gözəldir... Yayı bir başqa gözəl, qışı bir başqa gözəl olan şəhər, sən həmişə gözəlsən. Qədirbilən sakinlərinlə, ixtiraçı, yenilikçi usta-sənətkarlarınla sən hər fəsildə gözəlsən...

***Mətanət Məmmədova***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
7. **F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
8. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Tatuya görə kimisə işdən çıxarmaq olar?



## VƏKİL AÇIQLADI

"Dünya praktikasında həm dövlət orqanlarında, həm kommersiya qurumlarında "dress kod" deyilən geyim qaydaları müəyyən olunur. Türkiyədə isə bu barədə xüsusi qanun var. Ancaq Azərbaycanda qanunvericilik bu məsələni birbaşa tənzimləmir və bu barədə hər hansı qanun qəbul edilməmişdir. Lakin hər bir şirkət və ya dövlət orqanı sərbəst iradə ifadəsi əsasında öz işçiləri üçün müəyyən geyim qaydaları müəyyən edə bilər və dress kod qaydalarını yalnız öz işçilərinə münasibətdə tətbiq edə bilər". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, qaldı ki tatuya (tatuaj, döymə) görə işçinin işdən çıxarılması məsələsinə bu hissə biraz mübahisəlidir: "Məsələn, polis və ya prokurorluq əməkdaşı üzünə və ya görünən hissəsinə "tatu" vurdurarsa, cəmiyyətdə həmin əməkdaşa qeyri-ciddi münasibət yaranar, bu da həmin orqanların nüfuzuna zərbə vura bilər. Yəni göstərdiyi xidmətin xarakteri və daxili xidmət nizamnaməsi ona imkan vermir ki, o bədəninin görünən yerinə döymə vurdursun. Bədənin görünməyən hissəsinə tatu vurdurulması hesab edirəm ki, hər kəsin şəxsi işidir.

Bir başqa nümunə göstərək. Məsələn, hər hansı şirkətin işçisi olan motosiklet və ya moped sürən kuryeri tatu vurdurduğuna görə işdən azad etmək qanunsuz olardı. Belə ki, onun gördüyü işin xarakteri tatu vurdurmağa imkan verir. Yəni motosiklet sürən bir şəxsin bədəninə tatu vurdurması cəmiyyətdə mənfi rezonansa səbəb olmur. Cəmiyyət bunu normal qarşılayır. Beləliklə, əgər bu məsələ qanunla tənzimlənmirsə, bir qayda olaraq, işçinin tatuya görə işdən çıxarılması qanunsuz və əsassızdır. Lakin unutmamaq lazımdır ki, bəzi dövlət orqanlarında (polis, prokurorluq, məhkəmə, hərbi hissələr və s.) daxili xidmət nizamnaməsinin tələblərinə riayət etmək həmin təşkilatın əməkdaşlarının vəzifə borcudur. Fikrimcə, qanunvericilikdə nəzərdə tutulmamışdırsa bəzi istisnalar nəzərə alınmaqla hər hansı özəl müəssisə və dövlət orqanlarının başqalarına nəyisə diktə etmək hüququ yoxdur. Ancaq bütün bunların fonunda nəzərdə alınmalıdır ki, vətəndaşlar da öz növbəsində cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərdən çəkinməli və digər şəxslərdə ikrah hissi oyatmamalıdırlar".

***Ayşən Vəli***

## Braziliyalı futbolçu "Qalatasaray"da

Türkiyənin "Qalatasaray" futbol klubu Mateus Kardoso Lemos Martins (Tete) ilə 4+1 illik müqavilə imzalayıb. SİA xəbər verir ki, braziliyalı futbolçu Tetenin transferi klubun sosial media hesabında açıqlanıb."4+1 mövsüm variantı ilə transfer üçün peşəkar futbolçu Mateus Kardoso Lemos Martins ilə razılıq əldə olunub. Hər mövsüm üçün 2.800.000 avro zəmanət haqqı ilə toplam 3.100.000 avro imza haqqı ödəniləcək. Onun seçimi Qalatasaraydır!", - qeyd olunub.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**